www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 21 iyun 2018-ci il Cümə axşamı № 132 (7021) Qiyməti 60 qəpik

**Xəbər**

**Azərbaycanda ilk - cinayət törədənlərə elektron nəzarətin tətbiqinə başlanıldı**

yazısı səh.2-də

**Gündəm**

**Zəhər saçan pambıq sahələri - məsuliyyət kimindir...**



Nazirlik: "Fermerlərə, sahibkarlara, icra hakimiyyətlərinə məktub ünvanlanıb ki..."

yazısı səh.4-də

**Azərbaycanlıları qətlə yetirən erməni general həbs olundu**

yazısı səh.7-də

**Gürcüstanda Rusiya təsirləri güclənir**

yazısı səh.9-da

**OPEK ölkələri toplanır - hasilat artırılacaq, qiymət isə...**

yazısı səh.10-da

**Nazir oğlunun itləri Mais Piriyevi əsəbiləşdirdi**

yazısı səh.6-da

**Putin üçün DÇ şansı**

yazısı səh.10-da

**"Rusiya 2020-ci illərdə dağılacaq" iddiası**

yazısı səh.12-də

**Qadınları dəhşətli hala salan kosmetoloqun klinikası bağlandı**

yazısı səh.15-də

**Danışıqlar dalandan nə vaxt çıxacaq? - Moskva gözləmə mövqeyində**

yazısı səh.11-də

**Bazarlarda malı yanan sahibkarların kompensasiya dərdi**

yazısı səh.6-da

**Ərəb ölkələri Qətəri diz çökdürür**

yazısı səh.12-də

**18 yaşlı qızın ölümündə təqsirləndirilən həkimlərə qarşı əlavə ittiham verildi**

yazısı səh.2-də

# BAKIDAN DÜŞMƏNƏ MÜHARİBƏ MESAJI - "TAM HAZIRIQ..."

Hərb nazirimiz "artıq Laçına gedən yol nəzarətimizdədir", dedi; hərbi parad ərəfəsi arsenalımızdakı yeni dağıdıcı silahların anonsu verildi, işğalçının qorxulu röyası olan "Dəmir günbəz" raketdən müdafiə sisteminə işarə vurdu...




yazısı səh.8-də

## "Şəmkirin icra başçısı Fazil Məmmədovu satmağa hazırdır" - şok iddia

Alimpaşa Məmmədov vəzifəsini qorumaq üçün keçmiş patronu haqda "ötmək" istəyir

yazısı səh.5-də



*Fərəc Quliyev:*

**"Konfederasiya əleyhinə çıxanlar Azərbaycanın güclənməsini istəməyənlərdir"**

yazısı səh.7-də




**Qazağın icra başçısına ittiham - "Meşəni qırdırır"**

yazısı səh.5-də



*Bəxtiyar Sadıqov:*

**"İcra başçılarına "danışmamaq" tapşırığı verilməyib"**

yazısı səh.5-də

YENİ MÜSAVAT
N 132 (7021) 21 iyun 2018



## Prezident İsmayıllıda avtomobil yolunun tikintisinə 5,4 milyon manat ayırdı

**Prezident İlham Əliyev İsmayıllı rayonunun Qaraməryəm-İsmayıllı-Şəki (5 km)-Kəlbənd-Girk avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

APA-nın məlumatına görə, min nəfər əhalinin yaşadığı 2 yaşayış məntəqəsini birləşdirən Qaraməryəm-İsmayıllı-Şəki (5 km)-Kəlbənd-Girk avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 5,4 milyon (beş milyon dörd yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.

## Hərbi və dövlət qulluqçuları, deputatlar, MSK üzvlərinin pensiyaları yenidən hesablanmaqla ödəniləcək



**Hərbi qulluqçular və xüsusi rütbəli şəxslərin, dövlət qulluqçularının, habelə "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 20-ci maddəsində əhatə olunan digər kateqoriyalardan olan şəxslərin (MM-in deputatları, MSK-nın üzvləri və b.) pensiyaları yaxın günlərdə yenidən hesablanmaqla ödənişi təmin olunacaq.**

Bunu Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat katibi Fazil Talıbov "APA-Economics"in sorğusuna cavab olaraq deyib.

F.Talıbov bildirib ki, qeyd olunan şəxslərin əmək pensiyalarının artımı onların çalışdıqları sahələr üzrə əmək haqlarının artımı ilə bağlıdır. Onun sözlərinə görə, cari ilin 1 mart tarixindən, bəzi dövlət qurumlarında isə 1 may tarixindən etibarən müvafiq kateqoriyadan olan şəxslərin vəzifə maaşı növbəti dəfə artırılıb. F.Talıblı qeyd edib ki, bununla əlaqədar həmin şəxslərin pensiyalarının yenidən hesablanaraq artırılması üçün zəruri işlər görülüb və müvafiq qaydaların layihəsi rəzılaşdırılır.

"Bu işlər yaxın günlərdə yekunlaşacaq və onların əmək haqlarının artırıldığı gündən sonra keçən ayların artım məbləği toplam halda hesablarına köçürüləcək", - deyə F.Talıbov bildirib.

## Özəl klinikada 18 yaşlı qızın ölümündə təqsirləndirilən həkimlərə qarşı əlavə ittiham verildi

**Cərrahiyyə əməliyyatı zamanı ölən 18 yaşlı qızın ölümündə təqsirləndirilən cərrah Sənan Mehdiyev və anestezioloq Emin Quluzadəyə qarşı istintaq orqanı tərəfindən əlavə ittiham irəli sürülüb.**

APA-nın xəbərinə görə, hər iki şəxsə qarşı əlavə olaraq Cinayət Məcəlləsinin 314.2 (səhlənkarlıq ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda) maddəsi ilə ittiham irəli sürüldüyü açıqlanıb.

İş Yasamal Rayon Məhkəməsinə göndərilib.

Məhkəmə prosesi yaxın vaxtlarda başlayacaq.

Qeyd edək ki, bir müddət əvvəl Yasamal Rayon Məhkəməsinin qərarı ilə sözügedən cinayət işi təqsirləndirilən şəxslərə daha ağır ittiham irəli sürülməsi üçün Bakı Şəhər Prokurorluğuna qaytarılıb.

Xatırladaq ki, 2015-ci ilin mart ayında "StarMed" klinikasında qeyri-müəyyən şəraitdə əməliyyat vaxtı yeniyetmə qız Leyla Mürsəlova dünyasını dəyişib. Bununla bağlı Yasamal Rayon Prokurorluğunda Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 124.1-ci (ehtiyatsızlıqdan adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb.

Əməliyyatı aparmış cərrah Sənan Mehdiyev və anesteziooloq Emin Quluzadə barəsində polisin nəzarətinə verilmə qətimkan tədbiri seçilib.

# Nazir pambıqçıların zəhərlənməsinə görə xidmət rəisini işdən çıxardı

**Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Nəzarəti Xidmətinin rəisi Camal Quliyev işdən çıxarılıb.**

Bu barədə "APA-Economics"ə Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidmətinin rəhbəri Anar Hüseynov bildirib. Onun sözlərinə görə, C.Quliyevin yerinə Ələddin Eyvazov təyin olunub.

Qeyd edək ki, bu məlumatı ilk olaraq "Qafqazinfo" yazıb. Saytın yazdığına görə, Ə. Eyvazov bu il mayın 14-də nazirin müvafiq əmri ilə Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzinin direktoru təyin olunub. O, həmçinin uzun illər Dövlət Fitosanitar Nəzarət Xidmətində rəis müavini vəzifəsində də çalışıb.



Camal Quliyev

C. Quliyevin dünən İmişli rayonunda pambıq tarlasında işləyən fəhlələrin zəhərlənməsi faktına görə işdən çıxarıldığı ehtimal olunur.

## Təbiəti zibilləyən 206 fiziki və hüquqi şəxs cərimələndi

**Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsi respublikanın şəhər və rayonlarında, müalicə-sağlamlıq, turizm zonalarının ərazilərində, su mənbələrinin və mineral bulaqların sanitar mühafizə zonalarında, Xəzər dənizinin sahil zolağında və çimərliklərdə məişət tullantılarının tutumlardan (urnalardan) kənar yerlərə atılması, sənaye və məişət tullantılarının qalaqlanması, su obyektlərinin çirklənməsi və zibillənməsi hallarının qarşısının alınması məqsədilə mütəmadi tədbirlər həyata keçirir.**

DİN-in mətbuat xidmətindən musavat.com-a verilən məlumata görə, bu ilin iyun ayı ərzində paytaxtın Sabunçu, Xətai, Səbayel, Binəqədi, Xəzər, Abşeron rayonlarında və Sumqayıt şəhəri ərazilərində keçirilən belə tədbirlər zamanı İnzibati Xətalar Məcəlləsinin 271-ci (sənaye və məişət tullantılarının qalaqlanması və yandırılması zamanı ətraf mühitin mühafizəsi tələblərinə əməl edilməməsi), 266.3-cü (məişət tullantılarının tutumlardan (urnalardan) kənar yerlərə atılması) və 211-ci (sanitariya-gigyena və epidemiya əleyhinə rejimlərinin pozulması) maddələrinin tələblərini pozmuş 36 şəxs müəyyən edilərək inzibati məsuliyyətə cəlb edilib. Onlara tətbiq olunan cərimələrin məbləği 5 550 manat təşkil edib.

Ümumilikdə, ilin müvafiq dövrü ərzində şəhər, rayon polis orqanları tərəfindən həyata keçirilən belə tədbirlər nəticəsində İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələrinin tələblərini pozan 206 fiziki və hüquqi şəxs inzibati məsuliyyətə cəlb edilib, onlara, ümumilikdə, 13 550 manat cərimə tətbiq olunub.

Tədbirlər davam etdirilir.

❑ Musavat.com

## Türkiyənin 100-dək hərbi qulluqçusu Azərbaycana gəldi

**Türkiyə Silahlı Qüvvələrinin 100 nəfərədək hərbi qulluqçusu Azərbaycana gəlib. Bu barədə APA-ya Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib. Məqsəd Azərbaycan Silahlı Qüvvələrinin 100 illik yubileyinə həsr edilmiş bayram tədbirlərində iştirak etməkdir.**



## Azərbaycanda ilk - cinayət törədənlərə elektron nəzarətin tətbiqinə başlanıldı



**Azərbaycanda azadlığın məhdudlaşdırılması ilə bağlı yeni cəza növünün - elektron nəzarət vasitələrinin tətbiqinə başlanılıb. «Trend»in məlumatına görə, bunu ədliyyə nazirinin müavini Məhərrəm Əliyev "Hüquq bərabərliyinin təmin olunmasında və təşviqində milli insan hüquqları təsisatlarının rolu" mövzusunda keçirilən Ombudsmanların XV Bakı Beynəlxalq Konfransında çıxışı zamanı deyib.**

Nazir müavininin sözlərinə görə, prezident İlham Əliyevin 2017-ci ilin fevral ayında cəza siyasətinin humanistləşdirilməsi ilə bağlı verdiyi sərəncam əsasında bir çox işlər həyata keçirilib, həbs edilmiş şəxslərin sayı azalıb.

M.Əliyev əlavə edib ki, son illər məhkəmə-hüquq sistemində aparılan ardıcıl və məqsədyönlü tədbirlər nəticəsində əhaliyə hüquqi yardımların göstərilməsinə xüsusi diqqət yetirilir.

Yeni regional məhkəmələrin təsis edilməsi, paytaxt və regionlarda yeni məhkəmə binalarının tikilməsi, məhkəmə fəaliyyətində ən son texnologiyaların-elektron məhkəmə sisteminin tətbiqi bu sahədə işin keyfiyyətinə səmərəli təsir göstərib.

M.Əliyev qeyd edib ki, həyata keçirilən tədbirlər əhalinin məhkəmələrə olan inamını yüksəldib. Bunun nəticəsi olaraq məhkəmələrə edilən müraciətlərin sayı ilbəil artır.

Nazir müavini bildirib ki, 2000-ci illə müqayisədə məhkəmələrdə baxılan mülki xarakterli işlərin sayı 20 dəfədən çox artıb.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

## "İran və İraq PKK-ya qarşı hərbi əməliyyatlarda iştirak etmirlər" - Çavuşoğlu

**İran və İraq PKK terror təşkilatına qarşı İraqın şimalında aparılan hərbi əməliyyatlarda iştirak etmirlər.**

«Trend»in məlumatına görə, bunu Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu deyib.

Nazir bildirib ki, İraqın şimalında PKK ilə mübarizə çərçivəsində aparılan əməliyyatlar bu ölkənin suverenliyinə qarşı yönəlməyib.

M.Çavuşoğlu qeyd edib ki, Türkiyənin öz sərhədlərinin təhlükəsizliyini təmin etməyə haqqı var: "PKK bütün region üçün real təhdiddir".

## Gigiyenik qaydaları pozan 36 nəfər məsuliyyətə cəlb edildi

**Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsi respublikanın şəhər və rayonlarında, müalicə-sağlamlıq, turizm zonalarının ərazilərində, su mənbələrinin və mineral bulaqların sanitar mühafizə zonalarında, Xəzər dənizinin sahil zolağında və çimərliklərdə məişət tullantılarının tutumlardan (urnalardan) kənar yerlərə atılması, sənaye və məişət tullantılarının qalaqlanması, su obyektlərinin çirklənməsi və zibillənməsi hallarının qarşısının alınması məqsədilə mütəmadi tədbirlər həyata keçirib.**

Nazirliyin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, cari ilin iyun ayı ərzində paytaxtın Sabunçu, Xətai, Səbayel, Binəqədi, Xəzər, Abşeron rayonlarında və Sumqayıt şəhəri ərazilərində keçirilən belə tədbirlər zamanı İnzibati Xətalar Məcəlləsinin 271-ci (sənaye və məişət tullantılarının qalaqlanması və yandırılması zamanı ətraf mühitin mühafizəsi tələblərinə əməl edilməməsi), 266.3-cü (məişət tullantılarının tutumlardan (urnalardan) kənar yerlərə atılması) və 211-ci (sanitariya-gigyena və epidemiya əleyhinə rejimlərinin pozulması) maddələrinin tələblərini pozmuş 36 şəxs müəyyən edilərək inzibati məsuliyyətə cəlb edilib. Onlara tətbiq olunan cərimələrin məbləği 5.550 manat təşkil edib.

Ümumilikdə bu ilin müvafiq dövrü ərzində şəhər, rayon polis orqanları tərəfindən həyata keçirilən belə tədbirlər nəticəsində İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələrinin tələblərini pozan 206 fiziki və hüquqi şəxs inzibati məsuliyyətə cəlb edilib, onlara ümumilikdə 13.550 manat cərimə tətbiq olunub.

Bu istiqamətlərdə tədbirlər davam etdirilir.

YENİ MÜSAVAT
N 132 (7021) 21 iyun 2018

**Türkiyədə keçiriləcək növbədənkənar prezident və parlament seçkilərinə üç gün qalır. Asan olmayacaq bu seçkilərlə bağlı qardaş ölkə bütün dünyanın diqqət mərkəzindədir.**



# Türkiyədə seçki həyəcanı

## Toğrul İsmayıl: "Türk seçicisi hər zaman sürprizlər edir"

Prezident seçkilərində kimin qalib olacağı ilə bağlı proqnozlar birmənalı deyil. Cümhur başqanı olmaq üçün AKP lideri, hazırkı ölkə rəhbəri Rəcəb Tayyib Ərdoğan, Cümhuriyyət Xalq Partiyasının namizədi Məhərrəm İncə, İYİ Partiya başqanı Meral Akşener, HDP-nin keçmiş lideri Səlahəddin Dəmirtaş, Səadət Partiyasının başqanı Temel Karamollaoğlu və Vətən Partiyasının başqanı Doğu Perinçək mübarizə aparır.

Çoxları ikinci turun olacağını düşünür. Doğrudur, hazırkı prezident Rəcəb Tayyib Ərdoğanın seçkilərdə şəriksiz lider olacağına şübhə yoxdur. Amma onun prezident olmaq üçün 50%-i keçib-keçməyəcəyi suallar doğurur. CHP-nin seçkilərə Məhərrəm İncə ilə qatılması, eləcə də İyi Partiyanı yaradaraq siyasi səhnəyə çıxan Meral Akşenerin namizəd olması seçkilərə tamam fərqli bir rənglər qatıb. İkinci tur olarsa Ərdoğan iqtidarının çətin anlar yaşayacağı iddiası da var.

"Millət" ittifaqı ilə parlament seçkilərinə vahid şəkildə qatılan müxalifətin bu seçkilərdə üstün olacağı proqnozlaşdırılır. Lakin əvvəlki seçkilərdən fərqli olaraq prezident seçkilərində qalib gələn şəxsin hökuməti təkbaşına formalaşdırmaq səlahiyyətinə malik olması onun qarşısında cığırlar açır.

**Türkiyədə yaşayan azərbaycanlı politoloq Toğrul İsmayıl "Yeni Müsavat"a açıqlamasında seçki təbliğatında son texnologiyalardan istifadə edildiyini bildirdi:** "Müxalifətin təbliğat kampaniyasında daha çox AKP iqtidarının iqtisadi sahədəki xətaları üzərinə vurğu edilir. Son dönəmlərdə təbliğat-təşviqatda gərginliyin artdığını görürük. Seçkilər yaxınlaşdıqca siyasilər bir-birilərinə qarşı daha sərt mesajlar verməyə başlayıblar. Bu da Türkiyə cəmiyyətini narahat etməyə bilməz. Bu şəkildə hələ ki təbliğat davam edir. Hazırlıqlar artıq son həddədir. Siyasi partiyalar, prezidentliyə namizədlər öz tərəfdaşlarını aktiv şəkildə proseslərdə iştiraka çağırırlar. Cəmiyyətdə bu aktivlik hiss olunur. Yay ayları, dərslərin bitməsinə baxmayaraq bu aktivlik görünür. Seçkilər gözlənilən kimi aktiv şəkildə olacaq. Nəticələri görməyimizə artıq çox qısa zaman qalır. İkinci turun olacağı ehtimalları yenə də böyük görünür. Hesablamalar da bunu göstərir. Sadəcə, bunu qarışdırmamaq lazımdır ki, ikinci turun olması Ərdoğanın və liderі olduğu AKP-nin məğlub olması anlamına gəlmir. Bunu əvvəlki seçkilərlə müqayisə edib demək olar ki, nə qədər irəliləyiş, yaxud gerilik var. Ümumiyyətlə, Ərdoğan çox maraqlı bir siyasi liderdir. Türkiyə tarixində ilk dəfə olaraq, uzun illər hakimiyyətdə olmasına baxmayaraq yüksələn xətlə səslərini artıraraq seçkiləri qazanıb. Bugünkü seçkilərdə ikinci turun olub-olmayacağından asılı olmayaraq həmin nəticələrə baxmaq lazımdır. İkinci tur istənilən halda ehtimallar arasındadır. Türkiyə seçicisi çox həssasdır. Bugünkü iqtidarın ən zəif nöqtəsi uzun illər hakimiyyətdə olmasıdır. Uzun müddət hakimiyyətdə qalmaq istənilən iqtidarı tükəndirir. Məhərrəm İncənin təbliğatda bir az önə keçdiyi barədə düşüncələr var. Bunu seçkilərin nəticələri göstərəcək. Unutmaq olmaz ki, belə düşüncələr, sadəcə, yorumdur".

**T.İsmayıl seçkilərdə sürprizlərin olacağını istisna etmir:** "Türk seçicisi hər zaman sürprizlər edir. Bunu yaxşı bilirik. CHP-ni də, MHP-ni də zamanında 10% barajın altında buraxıb. Türkiyədə gənclər demək olar hakimiyyətdə Ərdoğanı, AK Partini görüblər. Alternativ də demək olar olmayıb. Bu kimi məsələlər öz sözünü təbii ki, deyir. AKP və Ərdoğan hakimiyyətdə olduqları illər böyük işlərə imza atıblar. Uzun müddət hakimiyyətdə qalmaq xətaların da çox olması deməkdir. Burada bölgədəki siyasi mühiti də unutmamaq lazımdır. Yaxın Şərqdə ciddi şəkildə dəyişikliklər, savaşlar var. Bunlar da istər-istəməz Türkiyəyə öz təsirini göstərir. Bugünkü hakimiyyətin daxili və xarici siyasətinin formalaşmasına da ciddi təsir edir. AK Parti hakimiyyəti illərində ciddi dönüşlər yarada bildi. Yanlışlarını görüb dönüş etməyi bacardılar. Digər tərəfdən, təhsil sistemində istənilən dönüşü edə bilmədilər. İslahatlar istənildiyi kimi gerçəkləşə bilmədi. Belə məsələlər indiki iqtidara müəyyən dərəcədə mənfiliklər gətirir. Bundan əlavə, ekonomik sahədə, eləcə də bölgədə Türkiyənin öz sözünü deməsi müsbət cəhətlərdir. Buna qarşı müxalifət hakimiyyət daxilində olan nazirlərin, siyasilərin səhvlərini öndə tutaraq təbliğatlarını bunun üzərində qururlar. Mənə görə bu taktika çox doğrudur".

**Politoloq seçkilərdə ikinci turun olacağı təqdirdə siyasi ortamın tamam fərqli olacağını düşünür:** "İlk dəfə Türkiyə bir başqanlıq sistemində prezident seçir. Bu da tamamən fərqli bir ortamdır. Əvvəllər də dediyim kimi, bu başqanlıq sisteminə qarşı çıxanlar az deyildi. Bunlar cəmiyyətin yarısını təşkil edirdi. Böyük şəhərlər də bu sistemin əleyhinə çıxmışdı. İndi bu sistemə qarşı çıxanların, bu sistemi istəməyənlərin, Ərdoğandan narazı olanların birləşmə dönəmidir. Türkiyə real, siyasi bir ortamdadır. Mövcud vəziyyəti keçmiş sistem üzərindən dəyərləndirsək, səhvlərə yol verə bilərik. Real sistem dəyərləndirməsində Cümhurbaşqanının birbaşa seçildiyini unutmaq olmaz. İlk dəfə yoxlanılmamış bir sistem hakimiyyətə gələcək. Cəmiyyətdəki bu tərəddüdlü vəziyyəti də unutmamaq lazımdır".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# ABŞ-dan Türkiyəyə zərbə - qardaş ölkəyə silah satışı dayandırıldı



## Nəzakət Məmmədova: "Amerika Türkiyəni birdəfəlik kənara atmaq istəyir"

**2019-cu ilin büdcəsindən Pentaqona 716 milyard dollarlıq maliyyə vəsaiti ayrılmasını nəzərdə tutan qanun layihəsi ABŞ Senatında 85 səslə qəbul edilib. Diqqət çəkən məqam isə layihənin Türkiyəyə aid hissəsidir.**

Belə ki, rəsmi Ankaranın Rusiyadan "S-400" havadan müdafiə sistemlərini alması ABŞ-ın narahatlığına səbəb olub. Məhz buna görə də ABŞ rəhbərliyi "F-35" döyüş təyyarəsinin, "Patriot" havadan müdafiə sistemlərinin, "AH-1" tipli Kobra, "H-60 Black Hawk" tipli vertolyotlarının, həmçinin "F-16" təyyarələrinin Türkiyəyə satışının blok edilməsinin vacibliyini diqqətə çatdırıb. Bu səbəbdən də mövcud layihədə Türkiyəyə qarşı belə bir bənd öz əksini tapıb. ABŞ-ın Müdafiə və Xarici İşlər Nazirliyinə tapşırılıb ki, Türkiyə ilə münasibətlərə dair hesabat hazırlanaraq Konqresin müvafiq komitələrinə təqdim olunsun. Hesabat başa çatmayana qədər isə sözügedən silahların Türkiyəyə satışının həyata keçirilməsi məhdudlaşdırılsın.

Ekspertlər bu addımın əslində Rusiyaya qarşı atıldığını bildirirlər. Qəbul edilən qanun layihəsinin Türkiyə-ABŞ münasibətlərini daha da gərginləşdirəcəyi proqnozlaşdırılır. Konqresin razılığı olmadan silah satışının Türkiyəyə qadağan edilməsinin qardaş ölkəyə təsirsiz ötüşməyəcəyi qeyd olunur.

**Politoloq Nəzakət Məmmədova hesab edir ki, ABŞ Türkiyəni özünə tabe etmək üçün bu cür yollara əl atır:** "Bu suala cavab axtarmağa çalışmalıyıq ki, son illərdə ABŞ-ın Türkiyəyə qarşı artan təzyiqlərdə məqsədi nədir, Amerika nəyə nail olmaq istəyir? Amerika Türkiyəni cəzalandırmaq, birdəfəlik kənara atmaq, yoxsa onu özünə tabe etmək istəyir? Belə bir prinsip var; əgər düşməni özünə tabe edə bilmirsənsə, onu məhv et. Yəqin ki, Amerika da Türkiyəni özünə tabe etmək, bu mümkün olmasa birdəfəlik kənara atmaq istəyir. ABŞ-ın son dövrlərdə bir çox addımları da bunu deməyə əsas verir. Konqresdə silah satışına qadağa barədə müzakirələr, İncirliklə bağlı hesabatın hazırlanması, yevangelist ruhaninin həbsinə görə narazılıq, dolların lirəyə nisbətdə bahalaşması, Ərdoğana müxalif partiyalara dəstək verilməsi və s. ABŞ Türkiyə və Ərdoğanı özünə tabe edə bilmədiyi üçün ona alternativlər hazırlamaqla istədiyinə nail olmaq istəyir. Xarici siyasətdə Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirliklərini Yaxın Şərqdə yeni, dünyəvilik və demokratiyaya can atan ölkələr kimi göstərməklə, daxili siyasətdə isə İncə və Akşenerə dəstək verməklə Ərdoğanı və Türkiyəni zəifləmək istəyir. Görünən odur ki, yeni dünya nizamı bir çox nəhəng geosiyasi, geostrateji və geoiqtisadi layihələrin əsasında qurulacaqdır. Əvvəllər hesab olunurdu ki, Yeni dünya düzəninin arxitekturası antiterror koalisiyaları əsasında formalaşa bilər. Lakin zaman keçdikcə hərbi ittifaqların deyil, geosiyasi ağırlıqlı iqtisadi-ticarət və nəqliyyat-kommunikasiya layihələrinin yeni ittifaqları və demək ki, dünya düzəninə əsas verəcəyi müşahidə olunur. Bunların başında isə sözsüz ki, Böyük İpək Yolu dayanır. Türkiyə Böyük İpək Yolu üzərindəki ən mühüm ölkələrdən biridir. ABŞ Çindən İngiltərəyədək uzanan bu nəhəng, qlobal layihəni əngəlləyə bilmədiyini görərək onu ələ keçirmək, burada əsas söz sahibi olmaq planları üzərində işləməyə başladı. Üstəlik, onun Yaxın və Orta Şərqin müttəfiq ərəb ölkələrindən, eləcə də Afrikanın şimalından keçməklə Aralıq dənizinə qədər uzanmasını təmin etmək istəyir. Türkiyə burada aparıcı ölkə olduğundan onun mövqeyi ABŞ üçün çox əhəmiyyətlidir. Lakin Türkiyə daha çox İran, Rusiya, Çinlə əməkdaşlığa önəm verir. Üstəlik, dollardan imtina və onun digər alternativlərlə əvəzlənməsi üçün çalışır. Rusiya və İran da onun bu çağırışlarına dəstək verir. Yevangelist ruhaninin 2016-cı ildən bəri həbsdə saxlanması, Suriyanın şimalında kürd dövlətinin yaranmasına imkan verilməməsi, Rusiyadan S-400 alınması, Qüdsün İsrailin paytaxtı kimi tanınmaması üçün Türkiyənin səyləri və s. aysberqin görünən tərəfidir. Türkiyə Rusiyanın güdazına getmir. Hər ölkənin öz siyasəti var, o cümlədən Türkiyənin. Bu, ABŞ-ın maraqlarına zidd olarsa, Amerika da ona təzyiq göstərməklə Türkiyəni zəifləmək, yenidən özünə tabe etməklə istədiyi kimi yönləndirmək istəyir. Türkiyə kimi strateji əhəmiyyətli bir müttəfiqin Rusiya və Çinin yanında yer alması onların gücünə güc qatar. ABŞ görür ki, heç bir ölkə Yaxın Şərqdə Türkiyəni əvəz etməyə qadir deyil. Nə Səudiyyə Ərəbistanı, nə də Birləşmiş Ərəb Əmirlikləri. Ona görə də Türkiyəyə qarşı yeni təzyiq planları işə salmaqla onu istədiyi kimi yönləndirməyə çalışır. Silah satışı məsələsinə qadağa barədə müzakirələr bu təzyiqin növbəti bir təzahürüdür".

**Politoloq onu da bildirdi ki, Amerika Türkiyəyə qarşı bütün sahələrdə total təzyiq vasitələrindən istifadə edir:** "Dövlət çevrilişi cəhdindən tutmuş, silah satışına qadağayadək, dolları bahalaşdırmayadək siyasi, geosiyasi, hərbi, iqtisadi bütün sahələrdə bu təzyiq var. Bunun nəticələrini biz cəmi bir neçə gün sonra məhz 24 iyun günü seçkilərdə görəcəyik. Türkiyə öz tarixində dönüş yaradacaq seçim etməli olacaqdır. Əgər Ərdoğan qalib gələrsə, demək, ABŞ-ın təzyiq və təhdidləri səmərəsiz oldu. Bu, həm də Türkiyənin Yeni Dünya düzənində aparıcı ölkə kimi statusunu və seçimini müəyyən edərək, dünya siyasətinin həlledici dönüş nöqtəsi olacaq".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 132 (7021) 21 iyun 2018

# Zəhər saçan pambıq sahələri - məsuliyyət kimindir...

**Nazirlik:** “Fermerlərə, sahibkarlara, icra hakimiyyətlərinə məktub ünvanlanıb ki, bu məsələdə bir qədər ehtiyatlı olsunlar, təhlükəsizlik qaydalarına əməl etsinlər”

**Pambıq tarlasında son bir ayda ikinci dəfə kütləvi zəhərlənmə baş verdi. Belə ki, iyunun 19-da İmişli rayonunda pambıq sahəsində becərmə işləri aparan işçilər arasında kütləvi zəhərlənmə olub. Zəhərlənənlərin sayının 80-ə yaxın olduğu bildirilib. Hadisə ilə bağlı xəbər yayıldıqdan sonra kənd təsərrüfatı naziri İnam Kərimov zəhərlənənlərin olduğu xəstəxanaya yollanıb, onlarla görüşdü.**



Nazir bildirdi ki, məsələ ilə bağlı cinayət işi başlanılıb. İmişli rayon icra başçısı Vilyam Hacıyev isə söyləyib ki, fəhlələr işləyən sahədə hər hansı dərman preparatından istifadə olunmayıb: “Yaxınlıqdakı digər sahə dərmanlanıb, həmin sahəyə kimyəvi maddənin təsiri keçmədən heç kim buraxılmır, sadəcə, küləyin təsirindən bu sahədə işləyən bir neçə nəfər yüngül baş gicəllənmə və ürəkbulanma hiss edib, ona görə də fəhlələr dərhal xəstəxanaya gətirilib”.

Onu da qeyd edək ki, İmişli rayonu küləkli ərazi kimi tanınmır. Orada insanlar küləkdən deyil, daha çox istidən şikayətlənirlər...

Bu hadisədən 9 gün öncə, yəni iyunun 10-da Saatlı rayonunda da pambıq sahəsində kütləvi zəhərlənmə olmuşdu. Rayonun Simadakənd kəndi ərazisində fermer Lətif Xəlilova məxsus torpaq sahəsində əkilmiş pambıq tarlasında işləyən 24 nəfər Sabirabad rayon sakini “Kimyəvi dərman zəhərlənməsi” diaqnozu ilə Saatlı mərkəzi rayon xəstəxanasına daxil olmuşdu. Hadisədən dərhal sonra ölkə başçısının tapşırığına əsasən zəhərlənmiş şəxslərin müalicəsi nəzarətə götürülmüş, zəhərlənmənin səbəblərinin araşdırılması məqsədilə Qida Təhlükəsizliyi Agentliyi, Kənd Təsərrüfatı, Səhiyyə və Ekologiya və Təbii Sərvətlər nazirliklərinin əməkdaşlarından ibarət komissiya rayona ezam edilmişdi. İmişli hadisəsindən sonra nazir İnam Kərimov bildirib ki, həm İmişlidə baş vermiş hadisə, həm də bundan əvvəl Saatlı və Tərtərdə pambıq sahəsində baş verənlərlə bağlı Baş Prokurorluq tərəfindən cinayət işi başlanıb, hadisənin əsl səbəbi araşdırılır. Nazir aşağıdakıları bildirib:

**“Pambığın ərsəyə gəlməsi üçün həşəratlara qarşı kimyəvi maddələrin tətbiqi qaçılmazdır, zəruridir. Amma burada özəl şirkətlərin də üzərinə ciddi öhdəlik düşür. Özəl şirkətlər və fermerlərin həm biçində, həm də qulluqda texniki təhlükəsizlik qaydalarına ciddi riayət etməklə bağlı məsuliyyəti var. Həmçinin dərmanların keyfiyyəti ilə bağlı məsələ də araşdırılır. Biz istintaqın nəticələrini gözləməliyik. Ehtimala görə, bu hadisələr idxal olunan dərmanların keyfiyyəti və yaxud özəl şirkətlər tərəfindən təhlükəsizlik qaydalarına riayət olunmamasından baş verə bilər”.**

Məsələ sosial şəbəkələrin də gündəminə çevrildi. Müxtəlif ictimai şəxslər bildirdilər ki, sovet dönəmində də ölkə ərazisində pambıq əkilsə də, bu cür zəhərlənmə halları müşahidə olunmurdu. Bildirilir ki, əsas problem mütəxəssis çatışmazlığıdır.

**Kənd təsərrüfatı üzrə ekspert Vahid Məhərrəmov bildirib ki, pambıq bitkisinin 200-dən çox ziyanvericisi və 10-dan çox xəstəliyi var:**

“Ziyanverici həşəratlara, xəstəliklərə, alaq otlarına qarşı kimyəvi zəhərli maddələrdən uzun müddət istifadə edilsə də, əvvəllər pambıq sahələrində işləyənlərin zəhərlənməsi halları heç zaman müşahidə olunmayıb”.

Mütəxəssis indiki zəhərlənmələri məsuliyyətsizlikdə, qeyri-peşəkarlıqda və kadr problemində görür.

**“Yeni Müsavat”a danışan hakim-mütəxəssis Tofiq Ələsgəroğlu bildirib ki, əvvəllər pambıq sahələrinin dərmanlanması xüsusi qurğular, təyyarələr vasitəsilə aparılırdı:**

“Həşəratlara qarşı dərman vasitələrindən istifadə hər zaman olub. Lakin əvvəllər bu, xüsusi təyyarələr vasitəsilə aparılırdı. Heç bir zəhərlənmə hadisəsi də müşahidə olunmurdu. İndi isə bunu əllə aparırlar. Bu cür işlərin görülməsində Kənd Təsərrüfatı Nazirliyi tərəfindən xüsusi texnika verilməlidir. İnsanlar da son dərəcə ehtiyatlı olub, təhlükəsizlik qaydalarına əməl etməlidirlər”.

**Məsələ ilə bağlı məlumat almaq üçün Kənd Təsərrüfatı Nazirliyi ilə də əlaqə saxladıq. Nazirliyin mətbuat xidmətinin rəhbəri Anar Hüseynov “Yeni Müsavat”a bildirib ki, İmişlidə “MKT” adlı şirkətin innovasiyalar təsərrüfatı var ki, texnika işinə onlar baxırlar:** “O şirkətin öz hesabına və ”Aqrolizinq"dən aldığı texnikaları mövcuddur. Orada bəzi səlahiyyətlər artıq iyul ayının 1-dən etibarən Qida Təhlükəsizliyi Agentliyi tərəfindən həyata keçiriləcək. Bizim tərəfimizdən isə artıq fermerlərə, sahibkarlara, icra hakimiyyətlərinə məktub ünvanlanıb ki, bu məsələdə bir qədər ehtiyatlı olsunlar, təhlükəsizlik qaydalarına əməl etsinlər. Bu məsələdə təhlükəsizlik qaydalarına doğru-düzgün əməl olunması vacib haldır. Hazırda müvafiq qurumlardan ibarət yaradılan komissiya da öz işinə davam edir. Araşdırmanın nəticəsi məlum olduqdan sonra bu barədə ictimaiyyətə məlumat verəcəyik".

❑ **Əli RAİS,**
**“Yeni Müsavat”**

# Göyçaylılar üçün sevincli gün - uçan körpü istifadəyə hazırdır

“Çınqıl mafiyası”nın məhv etdiyi Göyçay çayının məcrası bərpa olunmasa, gələcəkdə daha böyük fəlakətlər qaçılmazdır





**İyunun 2-də Göyçay rayonunda Göyçay çayı üzərindəki uçan körpünün bərpası başa çatıb. Artıq təmir-bərpa işləri aparılmış hissədə asfalt örtüyü vurulur. İyunun 22-də körpünün istifadəyə veriləcəyi gözlənilir.**

Nəzərə çatdıraq ki, Göyçayda gediş-gəlişi təmin edən yeganə körpünün uçmasının səbəbi uzun illər ərazində Göyçay çayının məcrasının daş-çınqıl karxanaları tərəfindən kortəbii şəkildə məhv edilməsi olub. Belə ki, son 15 ildə çayın yatağının 10-dan çox şirkət tərəfindən barbarcasına, normadan 20-30 dəfədən də artıq daşınıb aparılmasına, eyni zamanda çaya yeni çınqıl-qum gəlməsinin qarşısı bəndlə kəsildiyinə görə rayon ərazisində Göyçay çayının məcrası 3-7 metrdən 20-22, bəzi yerlərdə 35-40 metrə qədər dərinləşib. Bu səbəbdən çayın yatağı körpü olan hissədə də məhv olub, burada dərinlik 5-6 metrdən 18-20 metrədək artıb. Nəticədə çayda su yaz-yay aylarının spesifikasına uyğun şəkildə artan zaman körpünün yuyulma nəticəsində çöldə qalan istinad laylarını da uçurdu. Beləliklə, orada öncə piyada körpüsü tamamilə, ardınca isə avtomobil körpüsünün bir hissəsi uçub dağıldı.

Faktiki olaraq sabiq nazir Ziya Məmmədova, rayonun keçmiş icra başçıları Mübariz Ağayevə, Ərziman Əliyevə və digər şəxslərə bağlı olan, habelə ATF şirkətinin daş-çınqıl karxanalarının qanunsuz, kortəbii fəaliyyəti nəticəsində rayon təsərrüfatına, dövlətə milyonlarla manat ziyan dəyib.

Uzunluğu 76 metr, eni 11,5 metr olan avtomobil körpüsünün 30 metrlik hissəsi dağılmış, nəticədə Bakı-Şamaxı-Yevlax avtomobil yolunda nəqliyyatın hərəkəti dayanmış, Göyçay çayının şərq hissəsindəki 38 kəndin rayon mərkəzi ilə əlaqəsi kəsilmişdi. İyunun 3-dən başlayaraq Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin və “Körpübinatikinti” ASC-nin tikinti briqadası və ağır texnikaları körpünün bərpası işlərinə başlayıb. Əvvəlcə çayda suyun axın istiqaməti dəyişdirilib, yəni suyun kənardan mərkəzə yönəldilərək məcrasının əvvəlki vəziyyətə qaytarılması üçün tədbirlər görülüb.

Sonra körpünün dağılmış yerində dəmir borular basdırılıb, uzunluğu 36 metr, eni 1 metr, hündürlüyü 5-9 metr olan beton istinad divarı qurulub. Hazırda ərazidə torpaqbərkitmə işləri görülür. Torpaq qatı çay yatağından təxminən 15 metr hündürlüyü olan körpüyədək qaldırılıb. Bu günədək əraziyə təxminən 20 min kubmetr torpaq tökülərək tarazlıq və bərkitmə işləri görülüb. Körpünün bərpası işlərinə 30-dan çox ağır texnika və 50-ə yaxın işçi qüvvəsi cəlb olunub. Tikinti işləri gündüz və gecə saatlarında davam etdirilir. İnşaat işlərinin 22 iyunda başa çatdırılması və körpünün istifadəyə verilməsi nəzərdə tutulur.

Qeyd edək ki, körpünün dağılması səbəbindən iyunun 2-dən bəri sürücülər Göyçay-Ucar-Göyçay (Bərgüşad yolu) avtomobil yolundan istifadə etməklə rayon mərkəzinə gedib-gəlirlər.

Xüsusi olaraq vurğulayaq ki, Göyçayda körpünün uçması ilə bağlı vəziyyəti ilk andan prezident İlham Əliyev nəzarətə götürüb. Prezidentin ciddi tapşırığından sonra körpünün 20 gün müddətinə istismara verilməsi üçün maksimum tədbirlər görülüb və qısa zamanda körpünün təmir-bərpa edilərək istfadəyə verilməsi mümkün olub.

Qeyd edək ki, “çınqıl mafiyası”nın qanunsuz fəaliyyəti ilə bağlı xeyli illər öncə müvafiq qurumlara rayon sakinləri tərəfindən şikayətlər edilib. 2014-cü ildə isə icra hakimiyyəti çayda təhlükəli vəziyyət yarandığı üçün daş-çınqıl karxanalarının fəaliyyətini yasaqlayan qərar verib. Ancaq şirkətlər buna məhəl qoymayaraq çay yatağını məhv etməkdə davam ediblər. Nəticədə gözlənilən fəlakət baş verib. Baş verən hadisə ilə bağlı cinayət işi açılıb, ekspertiza rəylərində Göyçay çayının məcrasının qanunsuz şəkildə talanması təsdiqini tapıb və 10-dək çınqıl karxanası sahibi həbs edilib. Rayon sakinləri bildirir ki, şirkətlərlə yanaşı sabiq nazir Ziya Məmmədov da məsuliyyətə cəlb edilməlidir, faktiki olaraq, rayondakı çayın məcrasını dağıdan iki böyük şirkət də birbaşa Z.Məmmədova aid olan ZQAN Holdinqə aiddir.

Ekspertlər bildirir ki, körpü istifadəyə verildikdən sonra təcili qaydada Göyçay çayının məcrasının əvvəlki vəziyyətinə qaytarılması üçün ciddi tədbirlər görülməlidir. Əgər çayın yatağı qalxmazsa, qarşıdakı aylarda, illərdə daha böyük fəlakətlər qaçılmaz olacaq.

❑ **T.ƏHMƏDLİ**
**“Yeni Müsavat”**

**Qazax rayon sakini Azər Məmmədli "Yeni Müsavat" qəzetinə müraciət edərək, rayonda 54 hektar meşə sahəsinin məhv edilməsi ilə bağlı məlumat verib. Şikayətçi bildirib ki, müvafiq qurumlara müraciət edib, kömək ala bilməyincə, məsələni ictimailəşdirmək qərarına gəlib. O, şikayətini geniş formada aşağıdakı kimi bildirib:**




# Qazağın icra başçısına ittiham - "Meşəni qırdırır"

## Azər Məmmədli: "Bu yaşıllıq mərhum prezident Heydər Əliyevin dövründə salınıb"









"Bildirmək istəyirəm ki, 1969-cu ildə mərhum prezident Heydər Əliyevin təşəbbüsü ilə salınmış 54 hektar meşə sahəsinin (25 mindən çox ağac var) artıq yüzlərlə ağacı qırılıb. Meşənin Qazax bələdiyyəsinin mülkiyyətinə heç bir aidiyyəti olmasa da Qazax bələdiyyəsi tərəfindən "Turan bank"da hesab açılıb və hər sotunu 800 manatdan vətəndaşlara satmaq adı ilə hesaba pul köçürülür. Torpağın satılmasına və vətəndaşlar tərəfindən hesaba köçürülən pullara birbaşa Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov nəzarət edir. "Turan bank"a pulların köçürülməsi tam qeyri-qanunidir və mənimsənilir. Sənədləşməni isə guya 6 aydan sonra edəcəklər. Məsələ ilə bağlı müvafiq qurumlara müraciət etmişəm. Müraciətlərimdən sonra icra başçısı ayrı-ayrı vətəndaşları qəbul edərək hədə-qorxu gəlib və mənə qarşı müxtəlif şikayət məktubu yazdırıb. Həmçinin o, məni tutdurmaqla da hədələyib. Qeyd etdiyim meşədən başqa, Qazax şəhərində ümumi istifadədə olan torpaq sahələrini 100-ə yaxın vətəndaşa satmaq adı ilə yenə də pul mənimsəyiblər. Onlar vətəndaşlardan torpağın müqabilində bələdiyyənin hesabına külli miqdarda pul keçirmələrini istəyiblər. Aldadılmış insanların içərisində şəhid ailələri, Qarabağ qaziləri də var. Misal üçün, Səməd Vurğun küçəsi, döngə 6 ünvanında 12 nəfər, Əliağa Şıxlinski küçəsində isə 13 nəfər aldadılıb. Ümumilikdə isə belə misallar 100-ə yaxındır".

Məsələ ilə bağlı münasibət öyrənmək üçün öncə Qazax Rayon İcra Hakimiyyətinin memarlıq və tikinti şöbəsi ilə əlaqə saxladıq. Şöbədən bildirildi ki, məsələdən məlumatlı deyillər. İcra hakimiyyətinin digər şöbələrindən də səslənən ittihamlarla bağlı münasibət ala bilmədik. Ya zəngimizə cavab vermədilər, ya da bildirdilər ki, məsələ barəsində məlumatlı deyillər...

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# "Şəmkirin icra başçısı Fazil Məmmədovu satmağa hazırdı" - şok iddia

## Alimpaşa Məmmədov vəzifəsini qorumaq üçün keçmiş patronu haqda ötmək istəyir



**Sabiq vergilər naziri Fazil Məmmədov tənha qalıb. Bir neçə ay əvvələ qədər əmrinə müntəzir olan, onun sayəsində yüksək mənsəb sahibinə çevrilmiş bir çox məmur artıq sabiq nazirlə məsafə saxlamağa başlayıb. Belə məmurlardan biri də Şəmkirin icra başçısı Alimpaşa Məmmədovdur.**

Bu həmin Alimpaşa Məmmədovdur ki, cavanlığında tamadalıqla gün keçirib, toydan-toya, məclisdən məclisə 5-10 manat sahibi olub. Həmin günlərin birində də onun bəxt ulduzu parlayıb. O dövrlər yeni nazir təyin olunan Fazil Məmmədov kefinin saz vaxtında məclisdə dil-dil ötən tamadanın yanına çağırılmasını sifariş edib. Tamada gəlib və məclisdə seçilən qonağın şəninə mədhiyyələr söyləyib. Kənd tamadası olan Alimpaşa Məmmədovu bir neçə gün sonra Vergilər Nazirliyinə çağırıblar. Nazirliyə tamada kimi gedən Alimpaşa Məmmədov oradan qayıdanda artıq vergi əməkdaşına çevrilib. İllərlə vergilər sistemində çalışandan sonra Fazil Məmmədov özünün qeyri-rəsmi qubernatorluğuna daxil olan Şəmkir rayonuna Alimpaşa Məmmədovu başçı göndərtdirə bilib. Bu gün Alimpaşa Məmmədov daha tamadalıq eləmir. Amma tamadalıq peşəsinin vərdişlərini də unuda bilmir. Şəmkirdə idarə, müəssisə və təşkilatların rəhbərləri onun iclasbazlığından beziblər. İcra başçısı, demək olar ki, hər gün iclas keçirir, saatlarla danışır, vədlər verir, sözdə görüləcək işləri bəh-bəhlə rəhbər işçilərə təqdim edir. Başçı iclas keçirdiyi saatlarda isə vətəndaşlar saatlarla rəhbər işçilərin qapısı ağzında onların işə gələcəyi ümidi ilə gözləyirlər. Rəhbər işçilər isə iclaslardan sonra iş yerlərinə çatınca görüləcək işləri birə-beş artır, vətəndaşları qəbul etməyə vaxtları qalmır. Təbii ki, bu da vətəndaşların haqlı narazılığına səbəb olur.

Deyilənə görə, sabiq vergilər naziri illər öncə atdığı addıma görə peşmandır. Vaxtilə vəzifə verdiyi əksər adamlar kimi Alimpaşa Məmmədov də sabiq nazirdən qaçır. Bu ilin aprelində Gəncə Beynəlxalq Klinikasına yerləşdirilən sabiq vergilər naziri Fazil Məmmədov bu gün də orada müalicəsini davam etdirir. Alimpaşa Məmmədov Gəncə ilə Şəmkir arasındakı 15-20 dəqiqəlik yolu qət edib Fazil Məmmədovu yoluxmaq əziyyətinə qatlaşmaq belə istəmir. Onun kreslosunu qorumaq üçün belə bir addım atdığı bildirilir.

F.Məmmədovun təyin etdirdiyi sabiq və keçmiş icra başçıları da ona baş çəkməyib. Söhbətlər dolaşır ki, həmin icra başçılarını F.Məmmədov vəzifəyə təyin etdirsə də, onlar vəfasızlıq ediblər. Bunu dönüklük kimi qiymətləndirən də, kreslosunu qorumaq istəyi ilə əlaqələndirənlər var. Onu da əlavə edək ki, 53 yaşı olan Fazil Məmmədovun hansı xəstəlikdən əziyyət çəkdiyi, müalicə kursunun nədən ibarət olduğu son zamanlara qədər sirr olaraq qalırdı. Mətbuatda yazılanlardan məlum olur ki, F.Məmmədovun səhhətindəki problemlər orqanizmindəki radioaktiv şüalarla bağlıdır. İddiaya görə, keçmiş nazir 1986-cı ildə baş verən Çernobıl qəzası zamanı hərbi mükəlləfiyyətli və gənc kadr kimi ora yardıma gedənlər arasında olub. Səhhətindəki problem də məhz o zamandan başlayıb. Çernobıla yardıma gedənlər və orada xəstəlik tapanlar keçmiş SSRİ ölkələrində qəhrəman kimi qəbul edilsələr və "müharibə veteranı" statusuna malik olsalar da, Fazil Məmmədovun bu statusdan heç zaman istifadə etmədiyi deyilir. Əksinə, vaxtilə etdiyi bu fədakarlığı, ümumiyyətlə, tərcümeyi-halında göstərməyib.

Alimpaşa Məmmədov haqda isə özəl mənbələrdən "Yeni Müsavat"a daxil olan bir başqa xəbəri oxucuların diqqətinə çatdırırıq. Mənbə bildirir ki, Alimpaşa Məmmədov bəlli dairələrə Fazil Məmmədova qarşı ifadə verməyə, necə deyərlər, onu "satmağa" hazır olduğunu deyib. Bir şərtlə ki, ona toxunulmasın. Yaxın günlərdə Şəmkirin icra başçısının bu təklifinin nə qədər keçərli olub-olmadığı bilinəcək...

❑ **E.HÜSEYNOV,**
**"Yeni Müsavat"**

# İcra başçılarına "danışmamaq" tapşırığı verilməyib-deputat

## Bəxtiyar Sadıqov: "Biz elə dövlət deyilik ki, açıq danışıqdan, mətbuatla təmasdan qaçaq..."

**Digər sahələrdən fərqli olaraq, jurnalistikada daim dinamika var. Gündəlik xəbərlər, dünyada və ölkədə baş verən hadisələr bu sahənin maraqlı tərəflərindəndir.**

Diktofonu qoşdun, müsahibinə sual verdin və yazdın. Nə var ki, bunda? Amma bu, məsələni, görünən üzüdür. Bir də məsələnin görünməyən üzü var. Müsahibini müsahibəyə razı salmaq o qədər də asan deyil. Zənglərin cavabsız qalır, üzünə qapılar açılmır və s. Əsas da ayrı-ayrı rayonların icra başçılarından açıqlama almaq müşkülə dönüb. Belə iddia var ki, icra hakimiyyətlərinin başçılarına göstəriş verilib ki, sussunlar, heç bir jurnalistə açıqlama verməsinlər.

**"Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov icra başçılarının jurnalistlərlə təmasdan qaçmasına münasibət bildirərkən "Yeni Müsavat" a deyib ki, dövlət tərəfindən belə bir tapşırıq olmayıb:** "Dövlət başçısı bütün mövzular və məsələlərlə bağlı daim müxtəlif mətbu orqanların nümayəndələrinə müsahibə verir. Hər dəfə müxtəlif tədbirlər olur, orada nitq söyləyir, məruzə edir. Orada biz jurnalistləri nəzərə alıb ən aktual mövzulara toxunur, dövlətin daxili və xarici siyasəti ilə bağlı məqamlara aydınlıq gətirir və bizim dadımıza çatan, yazılarımızda kara gələn çoxsaylı rəqəmlər səsləndiririk. Jurnalistlərlə təmasa girmək üçün insanın özünün hazırlığı,



müəyyən səviyyəsi olmalıdır. Jurnalistdən qaçmaqla, onunla dava etməklə heç nəyə nail olmaq mümkün deyil. Jurnalistlə dost olmaq lazımdır. Jurnalist cavandırsa, hər hansı bir məsələ ilə bağlı sənin fikrini təhrif edirsə, əsas məsələ qalıb, ikinci dərəcəli məsələləri qabardıb ondan süni sensasiya yaradırsa, bu iradını növbəti dəfə ona bildirə bilərsən. Deyərsən, bu cür vəziyyətdə əməkdaşlıq etmək istəmirəm. Eyni zamanda həmin jurnalistləri də tərbiyələndirərsən. Amma dövlətdən icra başçılarına "sus", "danışma" tapşırığı olmayıb. Biz elə dövlət deyilik ki, açıq danışıqdan, mətbuatla təmasdan qaçaq?! Hamı çalışmalıdır ki, həm mətbuatı qane edən cavablar versin, yaxud o mövzuda danışmaq istəməyəndə desin, "üzr istəyirəm, bu mövzuda danışmaq istəmirəm". Bütün hallarda isə jurnalistin telefonuna cavab verməmək, əməkdaşlıq etməmək yaxşı hal, çıxış yolu deyil".

**Millət vəkili onu da qeyd edib ki, jurnalistin sualını cavablamaq hər bir məmurun borcudur:** "Jurnalistlər sadə insanlar deyil. Jurnalistlərin də hamısı eyni niyyətli deyil. Bunlara baxmayaraq, Azərbaycanda mətbuat azadlığı var. Jurnalistin suallarını cavablamaq hər bir məmurun borcudur. O başqa məsələdir ki, onun vaxtı, imkanı olmasın. Onda mətbuat xidmətləri, yaxud o məsələ ilə bağlı şöbə müdirləri var. Onlar hökmən jurnalistin verdiyi suala cavab verməli, maraqlandığı məsələlərə aydınlıq gətirməlidirlər. Bu, onların həm də vəzifə borcudur. Onlar dövlət başçısından nümunə götürməlidirlər".

**B.Sadıqov jurnalistlərin təhqir olunmasına da münasibət bildirib:** "Bəzən görürsən ki, jurnalist icra başçısına kəskin sual verir. Həmin jurnalistə mədəni şəkildə "yox" demək, yaxud "bu suala cavab vermək istəmirəm", - demək əvəzinə bir də görürsən kimsə jurnalisti aşağılayır, ona acı söz deyir. Bəzən təhqiramiz ifadələr də işlədir. Azərbaycan demokratik dövlətdir. Bizim YAP-ın funksionerləri, millət vəkillərimiz, dövlət başçısını nümunə götürən çoxsaylı nazirlərimiz var ki, bunlar daim jurnalistlərlə ünsiyyətə girir, jurnalistin bütün suallarını cavablandırırlar. Və bəzən xoş niyyətlə verilməyən sualı təhqirə yol vermədən jurnalistə başa salır ki, çalışın bizimlə əməkdaşlıq edin. Sualı verəndə elə verin ki, sonradan ondan sensasiya düzəldib, qaşınmayan yerdən qan çıxarmayasınız".

❑ **Ləman MUSTAFAQIZI,**
**"Yeni Müsavat"**



# Kütləvi zəhərlənmə və Xuzistan kələyi

**Samir SARI**

**Bu saat dəqiqliyi ilə yadımda deyil, “pambıq qul əməyidir” kəlamını Marks deyib, yoxsa Engels. Şəxsən mən onu kəndçimiz Mürşüd kişidən eşitmişəm. Özü də ağsaqqal təkcə pambıq tarlasında işləməyi yox, eləcə də üzüm plantasiyasında çalışmağı da qul əməyi hesab edirdi. Suçu adam idi, “lapatka”si çiynindən düşməzdi.**

Amma Marksla (bəlkə də Engelslə) Engels adına sovxozun suçusu Mürşüd kişinin pambıq işinə yanaşmasının arasından yüz ildən artıq vaxt keçmişdi və artıq pambıq o qədər də qul əməyi sayıla bilməzdi. Çünki pambıq çiyidlərini liflərdən aqreqatlar ayırırdı, çiyidi tarlaya traktorlar səpirdi, kultivasiya işlərini traktorlar edirdi, hətta hazır məhsulun toplanışını da böyük ölçüdə kombaynlar həyata keçirirdi. Nəticədə sovet qullarına çox da iş qalmırdı.

Hərçənd 5-ci sinifdən sonra bizi, şagirdləri həmişə pambıq toplanışına cəlb edirdilər. Düz iki ay. Üstü açıq maşınların kuzovuna doldurub Arazboyu kəndlərə (bizim kənddə üzümçülük idi) aparırdılar. Əslində bu, bir az uşaq əməyinin istismarı, bir az da şagirdlərin qul yerinə qoyulmasıydı, amma biz pambıq toplanışına həvəslə gedirdik, hətta valideynlərimiz buraxmaq istəməyəndə gözdən oğurlanıb gedirdik. Çünki pambıq toplanışı xeyli əyləncəliydi. 6-7 kilo pambığımızı yığır, sonra bütün günü pambıq plantasiyasının qırağındakı kanalda çimir, əllə salınmış meşə zolağının kölgəsində oturub özümüzdən böyük uşaqların oynadığı qumara baxır, maraqlı söhbətlərinə qulaq asırdıq.

İnstitutda oxuyan zaman pambıq toplanışına cəlb olunmaq isə xeyli məsuliyyətli iş olsa da, daha əyləncəliydi. Kamp həyatı. Təbiətlə iç-içə. Hamısı 18-25 yaşlı gənclər. APİ-nin gözəl qızları. Mehribançılıqlar. Bu saat o dövrün tələbələrindən institut (universitet) illərindən ən yaddaqalan xatirələri soruşun, hamısı pambıq toplanışı günlərindən danışacaq.

O vaxtlar da tarlalara kimyəvi preparatlar - pestisidlər, insektisidlər, herbisidlər, akarasidlər çiləyirdilər, bəzən dərman iyindən baş çatlayırdı, amma zəhərlənən olmurdu.

İndi bu nə kütləvi zəhərlənmələrdir, baş açmaq olmur. Kənd zəhmətkeşləri illərdir metafos, Bi-58, sink-fosfit kimi güclü zəhərlərlə təmasda olurlar, arada “bizə süd-qatıq verilməlidir” deyə şikayət də edirlər, amma nə onlara ağartı məhsulları verən olur, nə də onlar zəhərlənirlər.

İndi bu nədir: insanların zəhərə immuniteti birə-beş azalıb, yoxsa preparatların zəhərlilik dozası birə-beş artıb?

Ya bəlkə bu təxribatdır? Bəlkə kimlərsə istəmir ki, biz aqrar sektoru, konkret olaraq pambıqçılığı inkişaf etdirək? Əcəba, kimin bazarına giririk? Şəkkak adamların sözü olmasın, bütün versiyalar araşdırılmalıdır.

İndilikdə isə sizə pambıqçılıq və neft xüsusunda bir əhvalat yazım. Bu olay təxminən 100 il öncə İranda, Xuzistan vilayətində olub. “İngiltərə-İran neft şirkəti” kəşfiyyat aparıb aşkar edib ki, Xuzistanda zəngin neft yataqları var, amma torpağın üstündə kəndlilər pambıq əkir. Təbii ki, kəndlilər torpaqlarını ingilislərə satmaq istəməyiblər, inadkarlıq ediblər. Belə olanda ingilislər varıb gediblər Hindistana, oradan xeyli zəhərli ilan gətirib daraşdırıblar Xuzistandakı tarlalara. İlanlar sürətlə doğub törəyib hər yanı basıblar. Kəndlilər pambıq plantasiyasına girə bilməz olublar. Bu zaman xeyirxah ingilislər yazıq kəndlilərə öz yardımlarını təklif ediblər, deyiblər, icazə verin, biz o sürünənləri qıraq, qurtaraq. Gündə birini ilan sancan kəndlilər ingilislərin yardım təklifini məmnuniyyətlə qəbul ediblər. Gerçəkdən ingilislər tarlalara hansı kimyəvi maddəni çiləyiblərsə, zəhərli ilanların hamısı qırılıb. Di gəl, artıq bu tarlalarda pambıq-filan da bitməz olub. Əlacı kəsilmiş kəndlilər torpaqlarını ingilislərə satmalı olublar ki, onlar onun təkindən neft çıxarsınlar.

Bu, Xuzistan kələyi haqqında qeydlər rus yazıçısı Boris Akuninin “Qara Şəhər” (Bakıda baş verən hadisələrdən bəhs edir) romanında var.

İndi deyirəm, görəsən, kənd zəhmətkeşlərinin bu dəfəki zəhər sınağının arxasında nə kimi kələklər var. Bir bilsəydik...

Mürşüd kişi sağ olsaydı, mütləq deyərdi ki, böyüklərin nə vecinədir, camaatı qul kimi işlədirlər, heç olmasa, süd-qatıq da vermirlər...

# Nazir oğlunun itləri Mais Piriyevi əsəbiləşdirdi

**Bir neçə gün öncə maliyyə naziri Samir Şərifovun oğlunun dünyada “Anadolu aslanı” kimi tanınan poyraz itləri alması, onları Türkiyədə 10 hektarlıq ərazidə saxlaması haqda məlumatlar yayılıb. Qeyd edək ki, məlumatların ana mənbəyi Türkiyə mətbuatı olub.**

İt fermasının sahibi Birol Başyiğitin sözlərinə görə, bu itlər iri cüssəli, qoruma instinktləri və insana yaxınlığı ilə dünyada məşhurların diqqətini çəkir. O bildirib ki, bu itləri nazirin oğlu Anadolunun Erdemit qəsəbəsində, 10 hektar xüsusi hasarlanmış ərazidə bəsləyir.

Məlumat Azərbaycan mediasının da diqqətini çəkib və müzakirələrə səbəb olub.

Məlum olduğu kimi, poyraz itlərin bəslənməsi, qidalanması, eyni zamanda onları saxlayan çobanın məvacibi böyük məbləğdə xərc deməkdir. Nazir oğlunun bu cür bahalı bir əyləncə ilə məşğul olması ictimai fikirdə qıcıq yaradır. Mətbuatda, sosial şəbəkələrdə Samir Şərifovun oğlunun bu pulları haradan alması, bahalı hobbisini hansı mənbələrdən maliyyələşdirdiyi sualları səsləndirilir.



Samir Şərifov

Nazir Samir Şərifov isə məsələ ilə bağlı mətbuata açıqlama verməyib, susmağı üstün tutub. Maraqlıdır, nazirin susmasının səbəbi nədir? Bu cür durumlarda məmur mediaya hansısa formada açıqlama, izahat verməyə borcludur. Samir Şərifov ölkənin maliyyə siyasətinin əsas, aparıcı icraçı məmurlarındandır. Onun oğlunun adının bahalı əyləncələrdə hallandırılması ictimaiyyətdə haqlı suallar doğurur.

**Azərbaycan mediası nazirlərlə, başqa iri ranqlı məmurlarla birbaşa əlaqə saxlamaq imkanından məhrumdur. Ona görə də mövzu ilə bağlı Maliyyə Nazirliyinin mətbuat xidməti ilə əlaqə saxladıq. Nazirliyin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Mais Piriyev sualımızı aqressiv qarşıladı:** “Bax elə bu cür məsələlərə münasibət bildirmirik. Hansı müzakirələrə səbəb olub? Nazirin oğlu harada 10 hektarlıq ərazidə it saxlayır? Bu cür məsələlər adama gülməli gəlir. Ümumiyyətlə, nazir bu cür qeyri-ciddi məsələlərlə bağlı heç vaxt açıqlama vermir”.

❑ **Xalidə GƏRAY, “Yeni Musavat”**

# Bazarlarda malı yanan sahibkarların kompensasiya dərdi

## Hüquqşünas: “Bütün dünyada olduğu kimi mülkiyyət sığortalanmalıdır”

**Ölkədə xüsusilə yay aylarında bazarlarda, obyektlərdə yanğın hadisələri baş verir. Son olaraq iyunun 19-da “Dərnəgül” bazarında baş verən yanğın hadisəsi zamanı sahibkarlar külli miqdarda zərərə düşdüklərini bildiriblər. Bəs bazarlarda malı yanan sahibkarlara kompensasiya verilirmi?**



Ölkədə ən çox yanğın hadisələrinin baş verdiyi ticarət mərkəzlərindən biri də “Binə” ticarət mərkəzidir. Orada baş verən yanğından sonra hər dəfə bazar rəhbərliyi, müvafiq qurumlar tərəfindən bildirilir ki, zərər çəkmiş şəxslərə kompensasiya ödəniləcək. Lakin hər dəfə də sahibkarlar şikayətlənirlər ki, onlara heç bir ödəniş, kompensasiya verilməyib.

Bundan əlavə, “maşın bazarı” kimi tanınan, avtomobilin ehtiyat hissələrinin satıldığı ərazidə də tez-tez yanğın hadisələri baş verir. Orada işləyən satıcılar da bildirdilər ki, kompensasiya ala bilmirlər. Müvafiq qurumların nümayəndələri bildirirlər ki, mağazası yanan sahibkarlara kompensasiyanın verilməmə səbəbi onların obyektlərini sığorta etməmələridir.

**Məsələ ilə bağlı “Yeni Müsavat”a danışan hüquqşünas Əsabəli Mustafayev bildirib ki, ilk növbədə bütün dünyada olduğu kimi mülkiyyət sığorta olunmalıdır:**

“Ona da məhv olmuş malın sığorta məbləği ödənilməlidir. Bu, əsas amillərdən biridir. Digər tərəfdən isə yanğının baş verməsinin səbəbləri araşdırılmalıdır. Yəqin ki, bu istiqamətdə də işlər aparılır. Məsələn, əgər bu, qəsdən yandırma, əmlakın qəsdən məhv edilməsidirsə, o zaman kim bu əməli törədibsə, dəyən zərəri də o ödəyəcək. Ekspertiza keçiriləcək, mühasibat uçotu aparılacaq və oradakı əmlakın miqdarı, dəyəri hesablanacaq. Bütün bunlar aparıldıqdan sonra gəlinən nəticəyə uyğun olaraq hadisəni törədən şəxsə qarşı mülki iddia qaldırılır. Bu, həm cinayət əməlidir, həm də tərkibində mülki iddia ola bilər. Üçüncü hal isə yanğına qarşı təhlükəsizlik tədbirlərinə riayət olunmamasından qaynaqlana bilər. Yeni təhlükəsizlik qaydalarına əməl olunmaz və yanğın baş verər. Burada da müəyyənləşməlidir ki, kimin günahı daha çoxdur. Tutaq ki, harada ki mallar saxlanılır, buna baxılar. Eyni zamanda tikilinin konstruksiyası nədəndir və həmin ərazidə yanğına qarşı və yanğından mühafizə vasitələri varmı. Bu vasitələrlə təmin olunmayıbsa, o zaman da bunu etməyənlər araşdırılır. Öyrənilir ki, məsələ icarəyə verənin üzərindədir, yoxsa ki, icarəyə götürənin”.

**Hüquqşünas bildirib ki, əgər yanğın təhlükəsizliyi qaydasını icarəyə verən pozubsa, qaydalara riayət etməyibsə, tikinti zamanı tezalışan maddələrdən istifadə edibsə, bütün bunlar da öyrənilir:**

“Belə ictimai obyektlərin özünün xüsusi yanğından mühafizə qaydaları var. Yanğından mühafizə idarələri bu cür obyektlərə rəy verməli, tez-tez yoxlamalar aparmalıdırlar. Öyrənməlidirlər ki, qaydalara necə əməl olunur. Bundan başqa, obyektin yanğınsöndürən avadanlıqlarla təmin olunub-olunmaması da ən azı ildə bir dəfə yoxlanmalıdır. Həmçinin su çənləri də qoyulmalı, müvafiq tədbirlər görülməlidir. Maşınlarda dərman qutusu olduğu kimi obyektlərdə də bu kimi vasitələr saxlanmalıdır. Əgər obyektin sahibi bu vasitələri almayıbsa, təmin etməyibsə, o zaman malın yiyələri bina sahibinə, icarə verənə qarşı iddia irəli sürə bilərlər”.

❑ **Əli RAİS, “Yeni Müsavat”**



# Bu il DGK xətti ilə dövlət büdcəsinə daxilolmalar 36 faiz artıb

**Bu ilin yanvar-may ayları ərzində Dövlət Gömrük Komitəsinin xətti ilə dövlət büdcəsinə 1 mlrd. 325 mln. 636,70 min manat daxil olub.**

“APA-Economics” komitənin açıqladığı statistikaya istinadən xəbər verir ki, gömrük daxilolmaları ötən ilin yanvar-may ayları ilə müqayisədə 350 mln. 733,39 min manat və ya 35,98% artıb.

Ötən 5 ay ərzində gömrük rüsumları üzrə dövlət büdcəsinə daxilolmalar 341 mln. 474,10 min manat, idxal edilən malların əlavə dəyər vergisi üzrə 911 mln. 941,60 min manat, aksizlər üzrə 57 mln. 927 min manat, yol vergisi üzrə isə 14 mln. 294 manat təşkil edib.

YENİ MÜSAVAT
N 132 (7021) 21 iyun 2018

# Sərdar Cəlaloğlunun konfederasiya təklifinə dəstək gəldi

**Azərbaycan-Türkiyə konfederasiyasının yaradılması təklifi yenidən müzakirə mövzusuna çevrilib. ADP sədri Sərdar Cəlaloğlunun 3 ay öncə prezidentliyə namizəd olarkən bu təkliflə çıxış etməsi ətrafında yeni diskussiya açılıb.**

## Fazil Mustafa: "Bunları top-tüfənglə qarşılamağı yanlış hesab edirəm"

## Fərəc Quliyev: "Konfederasiya əleyhinə çıxanlar Azərbaycanın güclənməsini istəməyənlərdir"





Doğrudur, bu müzakirələrdə S.Cəlaloğlu daha çox tənqid hədəfidir. Sanki bilərəkdən ona qarşı böyük bir kampaniyaya start verilib. Bir-birinin ardınca tanınmış siyasətçilər onun üzərinə hücuma keçir, onu məhşər ayağına çəkirlər. Bu da bəzi müəmmalara yol açır. Çünki konfederasiya birliyinin yaradılması təklifləri ötən əsrin 90-cı illərinin sonlarından etibarən səslənməyə başlayıb. ADP sədri, sadəcə, unudulmaqda olan bu məsələni yenidən gündəmə gətirib, özü də üç ay öncə. Lakin məlum olmayan səbəblərdən onun təklifi bu günlərdə gündəmi zəbt edib. Belə iddialar var ki, S.Cəlaloğluna qarşı bu kampaniya iki qardaş ölkənin birliyini istəməyən ruspərəst qüvvələr tərəfindən təşkil olunub.

**Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafa bildirdi ki, bu təklifi irəli sürən şəxsə baxıb bəzən münasibət bildirirlər:** "İndi bu ideyanı irəli sürən şəxsin fikirlərinin əksəriyyəti elmi əsasdan uzaq fikirlər olduğu üçün bəziləri düşünür ki, bu təklifi o, irəli sürübsə, demək, buna qeyri-ciddi yanaşmaq lazımdır. Məsələyə indiki perspektivdə baxılması doğru deyil. Azərbaycanın müstəqilliyini hamımız sevirik, bu müstəqillik hər zaman bizim üçün əsasdır. Amma gələcəkdə elə bir tarixi şərtlər formalaşa bilər ki, müstəqilliyimiz üçün ciddi təhlükələr yaranar. O zaman bu modellərdən hansısa birinə müraciət edə bilərik. Bu baxımdan qılıncla qarşılanacaq ideya deyil. Dəfələrlə bu məsələ qaldırılıb. Hətta "Qafqaz evi" ideyası var idi. Bu, o demək deyildi ki, Ermənistanla birləşməli idik. Bunlar konkret tarixi şəraitə görə ortaya atılan ideyalardır. Konfederasiya ideyasına da bu cür baxmaq lazımdır. Vaxtilə Naxçıvan-Araz Türk Respublikası da yaranmışdı. Bu modelləri siyasi nəticə olaraq görmək doğru deyil. Tarixi şəraitdə belə modellərdən birinə ehtiyac duyularsa, o zaman bunlardan birinə üz tutmaq mümkündür. Amma bunları top-tüfənglə qarşılamağı yanlış hesab edirəm. Kimin irəli sürməsindən asılı olmayaraq məsələni mürəkkəbləşdirmək lazım deyil. Çünki burada müstəqilliyin əleyhinə hansısa çağırış yoxdur. Eyni zamanda böyük qardaş kimi Azərbaycanın Türkiyənin himayəsinə keçmək məsələsi də burada yoxdur. Bu, sadəcə, gələcəkdə mümkün təhlükələrdən qorunmaq üçün variantlardan biri kimi düşünülə bilər. Hazırda belə bir təhlükə yoxdur. Əgər Rusiya və İranla konfederasiya yaradılması təklifi olardısa, açıq şəkildə bunun üzərinə getmək olardı. Türkiyə ilə bağlı istənilən ideyanı top-tüfənglə qarşılamaq doğru deyil. Çünki əvvəl-axır Türkiyə ilə Azərbaycanın yaxınlığını Avropa Birliyi modelində bir türk birliyi modelinə çevirməliyik. Bunlar uzaq perspektivdə olan məsələlərdir. Ona görə də bu məsələləri müzakirə etməyə dəyər, amma bunu rədd etmək, yox saymaq doğru deyil".

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, deputat Fərəc Quliyevin qənaətinə görə, Azərbaycanla Türkiyə arasında inteqrasiya başlayan kimi bu, bəzi qüvvələrin narahatlığına səbəb olur:** "Bir ara Belarus-Rusiya ittifaqı haqqında danışılırdı, Azərbaycanın da orada təmsilçiliyini istəyənlər var idi. Digər tərəfdən, Rusiya revanşist siyasət yürüdüb Avrasiya İttifaqı qurmaq istəyir, Azərbaycanın orada olmasına yumşaq baxırlar. Mən bir az irəli gedərək Turan-Avrasiya bloku haqqında 1998-ci ildə bir kitab yazmışdım. Belə fikirlər hər zaman olub. Düşünürəm ki, türk cümhuriyyətləri dərin inteqrasiya etməlidir. Bu, mədəni, iqtisadi əlaqələr, siyasi, hərbi müstəvidə özünü ehtiva etməlidir. Avropa İttifaqı yaranıb, türk dövlətləri və başqaları cəhd edir ki, ora daxil olsun. Bunun fonunda bizlər niyə türk-islam ənənələrinə söykənən birlik yaratmayaq? Hər hansı bir ittifaqda dövlətlər öz müstəqilliklərini saxlayırlar. Eyni zamanda da güclənirlər. Düşünürəm ki, bu ideyanı süngü ilə qarşılayanlar Azərbaycanın müstəqilliyini qoruyuruq pərdəsi altında daha çox türk dövlətlərinin bir-birinə yaxınlığına qarşı çıxan qüvvələrdir. Bunun başqa adı yoxdur. Bütün mənalarda bizlər dərin inteqrasiya haqqında düşünməliyik. Bu, dünyanın istənilən nöqtəsində yaşayan hər bir türk üçün çox önəmli məsələdir. Xatırlayırsınızsa, bir dəfə erməni səfir Türkiyə əleyhinə danışanda cənab prezident bildirmişdi ki, burada Türkiyə rəhbərliyi olmasa da, mən varam. Bu çox alqışlanan bir addım idi. Uzun illər öncə Əbülfəz Elçibəy konfederasiya birliyi haqqında fikirlər irəli sürüb. Sonralar Heydər Əliyev "Bir millət, iki dövlət" fikrini səsləndirib. Nə zaman enerji təhlükəsizliyində Azərbaycanın rolu artanda, Rusiyadan asılılıq azalanda Kreml özünə yaxın qüvvələri işə salır. Konfederasiya birliyi əleyhinə çıxanlar Azərbaycanın deyil, ölkəmizin türk dünyasında möhkəmlənməsinin əleyhinə çıxan qüvvələrdir".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# Azərbaycanlıları qətlə yetirən erməni general həbs olundu

## Akif Nağı: "Paşinyan ona təhlükə yarada biləcək qüvvələri sıradan çıxarır"

**Yerevan məhkəməsi deputat, general Manvel Qriqoryanın həbsi ilə bağlı baş prokuror Artak Davtyanın tövsiyəsini qəbul edib. Bu barədə AzadlıqRadiosunun erməni xidməti məlumat yayıb. Beləliklə, keçmiş deputat və general istintaq müddətində 3 ay həbsdə qalacaq.**



Xatırladaq ki, Ermənistan parlamenti iyunun 19-da Manvel Qriqoryanı deputat toxunulmazlığından məhrum edib. 62 yaşlı general ötən şənbə günü həbs edilib, qanunsuz silah və sursat saxlama, orduya məxsus əmlakı mənimsəməkdə, habelə mütəşəkkil cinayətkarlıqda ittiham olunur.

Onun bağ evi və Eçmiədzindəki evində aparılan axtarış zamanı böyük miqdarda silah və sursat, onlarla maşından ibarət avtomobil parkı, xüsusi zoopark, orduya məxsus ərzaq və digər mallar aşkar edilib. Manvel Qriqoryan Azərbaycanda bir çox ərazilərin işğalında iştirak etmiş adam kimi tanınır.

Manvel Qriqoryan 1956-cı ildə Eçmiədzinin Arşaluys kəndində doğulub. Yerevan Dövlət Universitetinin hüquq fakültəsini bitirib. Azərbaycan torpaqlarının qanlı işğalının fəal iştirakçısıdır. Dağlıq Qarabağda müxtəlif hərbi hissələrə komandirlik edib, Ermənistan ordusunda korpus komandiri olub. 1996-cı ildə general-mayor, 2000-ci ildə general-leytenant ali hərbi rütbəsi alıb. 2000-2008-ci illərdə Ermənistan müdafiə nazirinin müavini postunu tutub.

2012 və 2017-ci illərdə Serj Sərkisyanın Ermənistan Respublika Partiyasının proporsional siyahısından parlamentin deputatı seçilib. "Yerkrapa" könüllülər birliyinin sədridir.

Manvel Qriqoryanın oğlu Karen Qriqoryan həbsdən sonra Eçmiədzin meri postundan istefa verib. Ermənistan kilsəsinin iqamətgahı yerləşən Eçmiədzin şəhəri uzun illərdir ki, Manvel Qriqoryanın şəxsi mülkünə çevrilmişdi. Şəhərdə biznes obyektlərindən tutmuş, vəzifə təyinatına qədər hər şey məhz ondan soruşulurdu. Maraqlıdır ki, Eçmiədzinin meri də generalın oğlu Karen Qriqoryan idi. Öz əzazilliyi ilə seçilən Manvel Qriqoryan Serj S ərkisyanın və Respublika Partiyasının dayağı sayılırdı. 2016-cı ilin aprel döyüşləri zamanı onun başçılıq etdiyi "Yerkrapa" Birliyi təmas xəttinə 5 min könüllü də göndərmişdi.

Belə bir güclü generalın və siyasi fiqurun həbs olunması Ermənistanda böyük əks-sədaya səbəb olub. Bütün erməni mediası bu hadisə ilə silkələnir. Qriqoryanın həbsi yeni baş nazir Nikol Paşinyanın uzun illərdir Ermənistanda kök atmış və dövləti istədikləri şəkildə öz mənafelərinə işlədən generalitetə qarşı başlatdığı təmizləmə əməliyyatı kimi təqdim edilir.

Bəs bu hadisəni Qarabağ müharibəsinin aktiv iştirakçısı, əli azərbaycanlıların qanına batmış generalitetin əsas simalarından biri olan M.Qriqoryanın həbs olunması N.Paşinyanın təhlükəli generalları təmizləməyə başlaması saymaq olar? Bu əməliyyat həqiqətənmi korrupsiyaya qarşı əməliyyatdır, yoxsa pərdə arxasında başqa məqamlar var?

**Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Nikol Paşinyan ona təhlükə yarada biləcək qüvvələri sıradan çıxarır. Bu hadisəni Ermənistanda korrupsiyaya qarşı mübarizənin başlanması kimi təqdim etməyin ciddi əsası yoxdur:** "Manvel Qriqoryan oğlunu, digər adamlarını vəzifələrə yerləşdirməklə ciddi iqtisadi-maliyyə potensialına malik idi. Silah-sursat arsenalına da malik olduğu bəlli olub. Belə birisi istənilən vaxt nəzarətdən çıxıb hakimiyyətə qarşı hərəkətə keçə bilərdi. Manvel Qriqoryan həm Serj Sərkisyana, həm də Rusiyaya bağlı adamdı. Bu faktor isə onun hər an Paşinyana qarşı qalxa biləcəyi, hətta silahlı qiyam törədəcəyi ehtimalını gücləndirirdi. Nikol Paşinyan da bunu bilməmiş deyildi, əmin idi ki, bir gün general Qriqoryandan sarsıdıcı zərbə ala bilər. Ona görə də özü üçün real təhlükələrdən birini həbs etməklə neytrallaşdırmaq yolunu seçdi. Paşinyan bu proseslərə antikorrupsiya adı qoymaqla Qərbə mesaj göndərir, həmçinin daxili ictimai rəyi razı salmağa çalışır. Əslində isə burada korrupsiyaya qarşı mübarizə amili yox dərəcəsindədir. Erməni cəmiyyəti bütövlükdə korrupsionerlərdən ibarətdir, Paşinyan da bu cəmiyyətin bir hissədir. Ermənistanda hazırda bütün çevrilişlərdə olduğu kimi, əmlakın, sərvətlərin yenidən bölünməsi, potensial təhlükə vəd edən rəqiblərin sıradan çıxarılması prosesi gedir. Yeni sahiblər köhnələri sıradan çıxarıb var-dövləti ələ keçirməyə çalışırlar".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 132 (7021) 21 iyun 2018



# Şortik məcəlləsi

Zamin HACI
zaminhaci@gmail.com

"Əgər biz gedib görək ki, məsələn, övrətimiz əlinə bir yekə dəyənək alıb öz anasını döyür - biz övrətə heç bir söz demərik. Halbuki ata və ananın üzünə durmaq böyük günahlardan hesab olunur. Amma əgər biz övrətimizi küçədə üzüaçıq görsək, vurub öldürərik".

(Mirzə Cəlil, "Molla Nəsrəddin" jurnalı, 1907-ci il)

**Bir nəfər gənc vardır, vaxtilə bizdə Avropaya inteqrasiya-zad işlərinə baxırdı, indi hökumət bunu tutub zindana salıbdır. Deyirlər sərhədimizi qanunsuz yolla keçib qaçmaq istəyirmiş. Keçən il isə başqa bir nəfəri sərhədimizi o üzdən qanunsuz keçməyə cəhd maddəsi ilə tutdular. Görün necə maraqlı ölkədir. Bunu həm tərk eləmək cinayət sayılır, həm buna girmək. O daş haqda məsəldəki kimi: götürən də peşmandır, götürməyən də. Daşın harada yerləşdiyini yazmıram, bilənlər bilməyənlərə desinlər.**

İstəsən buna "Azərbaycan paradoksu" adı verib fəlsəfə kitablarına salmaq olar. Qədim yunanlarda belənçik söhbətlər olmuşdur. Misal üçün, Axilles və tısbağa haqda olan paradoks yadıma gəlir. Zenon adında bekar bir kişi olub, bunu uydurubdur. Deyir guya Axilles tısbağaya heç vaxt çata bilməz, çünki Axilles hər dəfə 100 metr gedəndə tısbağa da 10 metr gedir. Guya beləcə ara məsafəsi qorunur. Əslində tamam cəfəngiyyat fikirdir, Hüseyn Boltu gətir, lap maşını ötsün. Adam 100 metri 9 saniyəyə qaçmışdı. Yəni elementar olaraq hər 10 metrdən bir dəfə ayağını yerə vurduğunu zənn eləsək (bunu 1 saniyə sayaq) Hüseyn müəllim faktiki qaçmayıb, uçubdur. Bakı-Qazax qatarı axşam saat 10-11-də çıxıb səhər saat 9-da məkana çatırsa, bunun sürəti hardasa saatda 40-50 kilometr eləyir. Hüseyn Boltun 100 metrədə sürəti isə arada saatda 44 kilometrə qalxmışdır. Deməli Bolt istəsə Qazax qatarından bərk gedər. Buna görə biz hökumətə minnətdarıq, ümid edirik gələn yüzillikdə rayonlarımıza sürət qatarları olacaqdır.

Çünki sürət əsrində bunlar zəruri şeylərdir. Özünüz baxın, bütün sivil dünya xalqları artıq lütləniblər, təzədən geyinirlər, biz müsəlmanlar isə hələ də geyinməyin qaydalarını müzakirə eləyirik. Vaxtaşırı görürsən bir əlixınalı, başıörpəkli, yeddiqat tumanlı ağbirçək nənə, ağzıdualı, əlitəsbehli, qulağının dibindən bozbaş iyi gələn müdrik el ağsaqqalı hansısa cavan qız uşağını, ya da oğlanı tutub it sürütməsi eləyir, deyir nə üçün şortik geymisiniz, niyə baldırınız çöldədir, ölün yerə girin, sizin yiyəniz yoxdurmu və sairə. Son günlər yenə bu tema aktual olmuşdur, hansısa metroda şortik (lənət şeytana, artıq ikinci dəfə idi bu sözü səhvən "çortik" yazırdım; məncə bu "ç" və "ş" hərflərinin klaviaturada yanaşı olmasına görə yox, mistik səbəbdəndir - göylər mənim bu temaya qarışmağımı istəmirdi) geyinmiş bir qızı parçalayıb qatarın altına atıblar. Qızın şortikini üsyan bayrağı eləyərək milli qeyrətimizə, mentalitetimizə abidə qoymuşlar. Azyaşlıları zorlayanlar o bayrağın altında and içib mentalitet cəbhəsinə yollanırlar.

Bəs nə etməli? Məncə, həmişəki kimi hökumət qərarı olmalıdır. Dövlət özü şortik işinə qanun qoymasa heç zad düzəlməyəcəkdir, daima qan su yerinə axacaqdır. Yadınıza salın, yas yerlərindəki qonaqlığa hökumət son qoymadımı? Bu arada bir haşiyə çıxım. Şəxsən mən hər dəfə elə düşünürəm ki, artıq bütün millətə uniformalar verilibdir, tam formalaşaraq dövlətçilik mərhələsinə tullanmışıq. Ancaq yenə bir şortik qalmaqalı qopur, görürəm yanılmışam. Deməli, hamını hərbi-polis sisteminə düzəltmək hələ başa çatmayıbdır. İnşallah. Ümidsiz şeytandır.

Hesab edirəm hökumət deputatxanada xüsusi qanun qayırmalı, orada şortikin baldırın hansı nöqtəsinə qədər uzanması, göbəyi hara qədər açıq qoymaq olar, qoltuğun altını açmaq zəruridirmi, şalvar belindən düşürsə və onu əlinlə saxlamısansa icra hakiminin çıxışlarına əl çalmalısanmı və sairə və ilaxır detallar tənzimlənməlidir. Bunların hamısını sistemli şəkildə "Şortik məcəlləsi"ndə toplamaq olar. Zarafat gəlməsin, keçən əsrin əvvəlində ABŞ-da xüsusi polis olub, plyajları gəzib xətkeşlə, arşınla qadınların tumanının uzunluğunu ölçürmüş, qısa olsa cərimə yazırmış. Belə proseslərdən hamı keçibdir. Utanmaq lazım deyil. Hətta bəzi qəbilələr lüt arvad tutanda bişirib yeyiblər.

# Bakıdan düşmənə müharibə mesajı - "Tam hazırıq..."




## Hərb nazirimiz "Artıq Laçına gedən yol nəzarətimizdədir",- dedi; hərbi parad ərəfəsi arsenalımızdakı yeni dağıdıcı silahların anonsunu verdi, işğalçının qorxulu röyası olan İsrail istehsallı "Dəmir günbəz" raketdən müdafiə sisteminə işarə vurdu...

**İyunun 20-də Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov hərbi poliqonda müxtəlif bölmələrlə keçirilən səhra məşğələlərinin gedişini izləyib (APA). Xəbər verilir ki, nazir öncə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin 3-cü kurs kursantlarının taktiki məşğələlərinin keçirildiyi taktiki qüllədəki tədris sinfində olub.**

Sonra müdafiə naziri snayperlərin hazırlığı mərkəzinin atış sahəsində praktiki atışların təşkili və icrasını izləyib, motoatıcı, tank artilleriya bölmələrinin hazırlığını izləyib. Təlim məşqlərin sonunda poliqona dəvət olunmuş informasiya vasitələrinin nümayəndələri ilə görüşüb.

*****

Hərb nazirimiz Ali Baş Komandan, prezident İlham Əliyevin diqqət, qayğısı və rəhbərliyi altında son illər həyata keçirilən kompleks islahatların nəticəsi olaraq bu gün Azərbaycan ordusunun istənilən döyüş əmrini yerinə yetirməyə tam hazır və qadir olduğunu bildirib. O, hərbi hissələrdə yerinə yetirilən fəaliyyətlər, aparılan islahatlar, əldə edilən nailiyyətlər, qarşıda duran vəzifələr və tapşırıqlar barədə KİV nümayəndələrinin suallarını cavablandırıb.

Bu xüsusda o, son vaxtlar həm Azərbaycanda, həm də işğalçı Ermənistanda ciddi müzakirə mövzusu olan Naxçıvan əməliyyatı barədə də danışıb. Muxtar respublikanın Ermənistanla sərhədində çox uğurlu bir əməliyyatın keçirildiyini bildirib.

*****

**Zakir Həsənov "Düşmən bizə qarşı çox güclü informasiya mübarizəsi aparır. Lakin onlar bunda da bizə uduzurlar", deyib. Belə ki, nazir düşmənin iddialarının əksinə olaraq, neytral torpaq anlayışının olmadığını söyləyib:** "Sahibsiz torpaq yoxdur. Ora bizim torpaqlarımızdır. Ordumuzun uğurlu əməliyyatı nəticəsində 11 min hektar ərazi işğaldan azad edildi. Bildirmək istəyirəm ki, Laçına gedən yola artıq ordumuz nəzarət edir. Bu bizim növbəti uğurumuzdur".

Naxçıvan əməliyyatı ilə bağlı nazirlik videorolik də yayımlayıb. Buradaca yada salaq ki, düşmən ölkənin Müdafiə Nazirliyi guya Azərbaycanın heç bir əməliyyat keçirmədiyini, sadəcə, erməni tərəfinin guya humanistlik göstərərək və Günnüt kəndinin sakinlərinin xahişini nəzərə alaraq, onların kənd qəbiristanlığına baş çəkməsinə şərait yaratdığını iddia edirdi. Bununla bağlı öz ictimaiyyətini sakitləşdirmək üçün erməni tərəfi hətta video da yaymışdı. Hərçənd həmin videodan heç nə anlaşılmırdı.

Azərbaycan Müdafiə Nazirliyinin yaydığı video isə düşmənin yalanını bütünlüklə üzə çıxarır. Bir daha qənaət hasil olur ki, ordumuzun Naxçıvan bölmələri ermənilərin yeni populist baş naziri Nikol Paşinyana həqiqətən yaxşı "sürpriz" edib, onun imicinə ciddi zərbə vurub. Ən əsası, Zakir Həsənovun dediyi kimi, əməliyyat nəticəsində Laçına gedən yol bütünlüklə ordumuzun nəzarətinə keçib ki, bu da Qarabağda böyük antiteror əməliyyatı başlayacağı halda mühüm strateji və taktiki üstünlüyümüzün təmin olunması deməkdir. Çünki daha o yolla Ermənistan rahat şəkildə separatçılara silah-sursat və hərb texnika daşıya bilməyəcək.

O ki qaldı hava yoluna, məlumdur ki, Azərbaycanın müasir hava hücumundan müdafiə qüvvələri Xocalı hava limanı da daxil, Qarabağın və işğal altındakı digər ərazilərimizin hava məkanını da nəzarətdə saxlayır.

*****

**"Ali Baş Komandanın həyata keçirdiyi tədbirlər nəticəsində Silahlı Qüvvələr üçün yeni dağıdıcı silahlar alınıb". Bunu da bunu müdafiə naziri görüşdə deyib. Nazir habelə bütün döyüş maşınlarının yeniləndiyini söyləyib:** "Yeni tanklar, yeni piyadaların döyüş maşınları, döyüşlərdə istifadə olunan yeni zirehli maşınlar alınıb. Bütün bu texnikalar iyunun 26-da keçiriləcək hərbi paradda nümayiş etdiriləcək".

**Z. Həsənov həmçinin vurğulayıb ki, bu gün ordumuz ən müasir texnikalarla idarə olunur:** "Bu gün biz ən müasir, uzaq vuran raket və artilleriya sistemlərinə malikik. Bu raketlər düşmənin istənilən yerüstü və hava hədəfini məhv etməyə qadirdir. Ali Baş Komandan bir neçə gün əvvəl bu raketlərlə tanış oldu. Onların hamısı paradda nümayiş etdiriləcək".

"İyunun 26-da raket hücumu əleyhinə qalxan sistemi da nümayiş etdiriləcək". "Yeni Müsavat" "İnterfaks-Azərbaycan"a istinadən xəbər verir ki, bunu da hərb nazirimiz dünənki mətbuat konfransında söyləyib. "Çoxları deyir ki, Azərbaycanda belə sistemlər ola bilməz. Ancaq paradda görəcəksiniz ki, onlar nədir. Bu yalnız alınan yeni silahların bir qismidir", - deyə o, düşməni təlaşa salacaq tonda bildirib.

Lakin müdafiə naziri konkret hansı qalxan sistemindən söhbət getdiyini dəqiqləşdirməyib. Ancaq şübhə yox ki, söhbət İsrail istehsallı "Dəmir günbəz" raketdən (havadan) müdafiə sistemlərindən gedir. Hansı sistemlər ki, heç Rusiyanın özündə də yoxdur və yüksək dəqiqliyi ilə seçilir. Bakı bu sistemləri almaq üçün uzun müddət İsrail tərəfi ilə danışıqlar aparırdı. Bu sistemlər Bakının energetik infrastrukturunu və neft-qaz yataqlarını düşmənin raket hücumundan mühafizə eləmək üçün də misilsiz əhəmiyyət daşıyır...

Zakir Həsənov daha sonra deyib ki, Azərbaycan prezidenti qarşıya vəzifə qoyub ki, ordunun döyüş hazırlığının real döyüş hazırlığı vəziyyətinə gətirilməsi təmin edilsin. "Bir neçə ilə biz qarşımıza qoyulan vəzifələri tam yerinə yetirəcəyik. Söhbət həm də döyüş maşınlarının yenilənməsi və modernləşməsindən, yeni artilleriya sistemlərinin alınmasından gedir. Azərbaycan ordusu 90% avtomatlaşdırılmış idarə sistemləri ilə təchiz edilib. Bu yöndə nəhəng işlər aparılır", - deyə nazir sonda əlavə edib.

*****

Hərb nazirimizin bu açıqlamaları şübhəsiz ki, ilk növbədə işğalçı Ermənistana hədə kimi mesajdır ki, nə qədər gec deyil, daşı ətəyindən töksün, Azərbaycanın işğal altındakı ərazilərini boşaltmağa başlasın. Əks halda, bunu Azərbaycan ordusu etməli olacaq...

❑ Siyasət şöbəsi, "Yeni Müsavat"

EaP Eastern Partnership

## Minskdə Şərq Tərəfdaşlığı ölkələri xarici işlər nazirlərinin qeyri-rəsmi görüşü keçiriləcək

İyunun 21-22-də Belarusun paytaxtı Minsk şəhərində Avropa İttifaqı Şərq Tərəfdaşlığı ölkələri xarici işlər nazirlərinin 10-cu qeyri-rəsmi görüşü keçiriləcək.

APA-nın Belarus XİN-ə istinadən verdiyi məlumata görə, görüşə Şərq Tərəfdaşlığı ölkələrinin informasiya texnologiyaları üzrə nazirləri də qatılacaqlar.

Avropa İttifaqı tərəfdən görüşdə Avropanın genişləndirmə və qonşuluq siyasəti üzrə komissarı Yohannes Han, rəqəmsal iqtisadiyyat və cəmiyyət üzrə komissar Mariya Qabriyel iştirak edəcək.

# Gürcüstanda Rusiya təsirləri güclənir

## Saakaşvilinin və qərbyönlülərin qarşısının kəsilməsi planı dövriyyədə

**Gürcüstanda son zamanlar ictimai-siyasi vəziyyətin gərginləşdiyi müşahidə olunur. Mitinqlər keçirilir və artıq ötən həftə mitinqçilərin tələbləri qarşısında baş nazir istefa verib. Qonşu ölkədə gedən proseslərin keçmiş prezident Mixail Saakaşvilinin hakimiyyətə gəlmə ehtimalını artırıb-artırmadığı sualı get-gedə aktuallaşır.**

**Siyasi analitik Yeganə Hacıyeva** bu barədə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Gürcüstanda bu gün müsbət nə varsa məhz Mixail Saakavşilinin hakimiyyəti dönəmində əsası qoyulub. Bu ölkədə Saakaşvilinin rəhbərliyi altında başlanan demokratik proseslər dönməz xarakter alıb, cəmiyyət və dövlət institutları möhkəmlənib. Ölkədə qanunun aliliyi, müstəqil məhkəmə, hesabatlı hökumət, iqtisadiyyatın inkişafı üçün münbit şərait və siyasi bir sistem, bu sistemin idarəçiliyində yetişən yeni qərbyönümlü nəsil formalaşıb. Ölkədə rəhbərin kim olmasından asılı olmayaraq bu sistem hələ də işlək və güclüdür. Mixail Saakaşvili özü və partiyası hakimiyyətə qayıtmağa iddialıdır. Lakin hazırda bu iddianın gerçəkləşməsi üçün real zəmin yoxdur: "Mixail Saakaşvilini hakimiyyətə gürcü xalqı gətirə bilər. Lakin onun hakimiyyətə gəlişinə Rusiya bütün gücü ilə imkan verməməyə çalışır və çalışacaq. Belə bir vəziyyətdə isə Azərbaycanın Saakaşvilinin hakimiyyətə qayıdışına dəstək verməsi mümkün görünmür. Onu da nəzərə almaq lazımdır ki, nasibətlərdən məmnun olmayan qüvvələrin mövcudluğu da heç kimə sirr deyil.

Ancaq Azərbaycan Gürcüstanla dost və qardaş ölkə kimi çoxlu sayda, regional və qlobal ticarət, enerji, nəqliyyat və təhlükəsizlik sahəsində strateji tərəfdaşdır, Gürcüstan iqtisadiyyatında ən böyük xarici investordur. Bu ölkədə milyona yaxın etnik azərbaycanlı vətəndaş yaşayır". **Y.Hacıyeva Gürcüstanın baş naziri Georgi Kvirikaşvilinin istefaya məcbur edilməsinin arxasında Rusiya izinin olduğuna diqqət çəkdi:** "Məsələnin maraqlı tərəfi budur ki, etirazçılar polis zorakılığı və ölkədə narkotikin satışı ilə bağlı siyasətin liberallaşması tələbi ilə başlasa da, günün ikinci saatında artıq kütlə artıq baş nazir Georgi Kvirikaşvilinin istefasını tələbi edirdi. Qeyd edim ki, ümumi iqtisadi göstəricilərə görə Georgi Kvirikaşvili post-Saakaşvili dövrünün ən uğurlu iqtisadi nailiyyətlərin müəllifi olan baş naziri idi. Dediyim kimi, etirazlar birdən-birə məhz bu şəxsin istefası tələbi ilə keçirildi. Bu hadisə Georgi Kvirikaşvilinin Vaşinqton səfərindən bir neçə gün sonra başladı. Kvirikaşvili ABŞ səfəri zamanı dövlət katibi Mayk Pompeo ilə görüşmüş, tərəflər arasında ölkənin 2008-ci il Buxarest sammitində qərara alınmış Gürcüstanın NATO üzvlüyü ilə bağlı, Rusiya aqressiyasına məruz qalan ölkə kimi ABŞ tərəfindən silahlandırılması məsələsini müzakirə etmiş və ABŞ-ın hərbi müttəfiqi kimi Gürcüstanın müdafiə qabiliyyətinin gücləndirilməsində köməyinin vacibliyini nəzərə alaraq



Azərbaycanla Gürcüstan yaxın qonşu dövlətlər olsalar da müstəqil dövlət olaraq bir-birinin daxili məsələlərinə bu şəkildə qarışmırlar. Odur ki, Saakaşvilinin Gürcüstanda yenidən hakimiyyətə gəlməsi üçün Azərbaycanın hansısa təşəbbüsdə olması haqqında danışsaq, bu, inandırıcı görünməz. Bunun üçün nə ölkədaxili, nə də xarici faktorlar mövcud deyil".

**Ekspert onu da qeyd etdi ki, Gürcüstanda mövcud olan sistem ölkə daxilində digər arzuolunmaz qüvvələrin də, dini, radikal millətçi və s. kimi təhlükəli ideoloji qrupların inkişafına təkan verib. Həmin qüvvələr azadlıqlardan öz inkişafları üçün sui-istifadə ediblər. Uzunmüddətli hesabda bu qüvvələrin mövcudluğu ölkənin milli maraqlarına hədə kimi qəbul olunmaqdadır:** "Gürcüstanda Azərbaycanla xoş mükonkret addımlar atılmasının vacibliyini qeyd etmişdi. O, həmçinin NATO standartlarına çatmaq üçün bütün zəruri addımları atan Gürcüstanın həmçinin ABŞ-ın blokdankənar hərbi müttəfiqi olması təşəbbüsünü irəli sürmüş və ölkəsinin tank əleyhinə JAVELİN sistemini əldə etmək üçün şərait yaratdığına görə ABŞ-a təşəkkür etmişdi. Kvirikaşvili istefasını hakimiyyətdə olan Gürcü Arzusu Partiyasının lideri, Rusiyaya bağlı Bdzina İvanaşvili ilə aralarında olan fikir ayrılığı ilə izah edib. Bununla əslində o, dolayısı ilə işarə edib ki, istefa tələbinin ortaya çıxmasının arxasında Rusiya və ya Rusiyaya bağlı olanların planı dayanır. Görünən odur ki, uzunmüddətli hesabda Gürcüstanda siyasi proseslər Bdzina İvanaşvilinin yenidən baş nazir olması ilə nəticələnəcək".

❑ **Etibar SEYİDAĞA,
"Yeni Müsavat"**

# Futbol Putinin fikrini dağıdacaqmı?..



**Hüseynbala SƏLİMOV**

**Heç vaxt idmandan yazmamışam və indi də belə bir fikrim yoxdur. Sadəcə, bir detal mənə olduqca maraqlı görünür. Amma ola bilsin, bu da illərlə siyasətdən yazmağımın nəticəsidi ki, hətta onun olmadığı yerlərdə də yenə də siyasətin izlərini görürəm.**

Qərəz, başınızı çox ağrıtmayacam, nədənsə mənə belə gəlir ki, futbol çempionatında rusların ərəblərlə bir qrupa düşməsi də haradasa siyasətin təzahürüdür, sanki Rusiyaya çempionata sahiblik edən ölkə kimi bir azca güzəşt ediblər. Düzdür, hamı bilir ki, belə məsələlər püşklə həll edilir, di gəl, məni şübhə və tərəddüdlər tərk etmir.

Onu da bilirsiniz ki, ruslar fürsəti fövtə vermədilər, iki ərəb ölkəsini futbol meydançasında, necə deyərlər, darmadağın etdilər. Xüsusən də Səudiyyə ilə oyunu unuda bilmirəm. Bu ölkənin kralımı deyim, yoxsa vəliəhdimi, hər halda, təmsilçisi o qədər pərt oturmuşdu ki, sanki ölkəsi qalan məsələlərdə hamıdan irəlidədir, yalnız bir futbolda bəxti gətirmir.

Nə isə, buradaca futbolla bağlı mübahisəli "kommentariya"larımı bitirirəm. Bir də onu demək istəyirəm ki, nədənsə Qərb ölkələri dünya çempionatını boykot etmədilər, görünür, V.Putin yaxşı çalışmalı olub.

Di gəl, çətin ki, hətta futbol V.Putinin digər qayğılardan diqqətini yayındırmış olsun. Yox, bu, qəliz məsələdir, baxmayaraq ki, bütün anti - Rusiya səylərinin başında dayanan ABŞ -ın çox orijinal prezidenti cənab D.Tramp nə qədər çalışırsa, Putinə rəğbətini gizlədə bilmir.

Hətta belə xəbərlər də səslənir ki, ola bilsin, Trampın Putinin əlini ürəkdən sıxması üçün iyul ayında daha əlverişli imkanı olacaqdır. Amma Tramp Putinin əlini sıxmağa tələsir, ABŞ-ın "siyasət maşını"sa D.Trampın özünü.

Ona görə də Trampın anlaşılmaz simpatiyası da çətin ki, Putinin yarasına məlhəm olsun. Təbii, ifrat həyacanlı ssenarilərlə bağlı ehtimalları bölüşməyə hələ tələsmirik, amma Kremlin durumu o qədər də ürəkaçan halda deyil - Yer tədricən Rusiyanın altında titrəyir...

Bəli, hətta ərəb dünyasının bir parçasında da-Suriyada da işlər yaxşı getmir. Kreml özünü burada dərhal ağa kimi aparmağa başladı, amma ki, çox tez də müttəfiqlərinin müqavimətilə qarşılaşdı. Bir çoxları İran, Türkiyə və Rusiya arasında anlaşmanın yüksək səviyyədə olduğunu iddia etsələr də, əbət ki, belə deyil; İranla ciddi problemlər var, Türkiyə də Kremlə görə bölgədəki hədəflərindən vaz keçmək niyyətində deyil.

Şübhəsiz, Qərb tərəfdən soyuqluq bu üçlüyü bir azacıq yaxınlaşdırır, amma yalnız bir azacıq; realıqdasa hər üç ölkənin Suriyada öz hədəfləri mövcuddur və bu hədəfləri uzlaşdırmaq elə də asan məsələ deyil.

Üstəlik, ABŞ kiçik müdaxilə ilə "Astana üçlüyü" adlanan trionun Suriyadakı səylərini ən azı qeyri-müəyyən bir müddətə pozdu. Həm də üçlük içindəki ixtilaflar da az rol oynamır. Bu kiçik və darısqal müstəvi daxilində də mürəkkəb münasibətlər bərqərar olubdur. Kremlin hələ azca olsa da, Ankarayla daha səmimi münasibətlərə ümid etməyə əsası var və B.Əsədə münasibət onları ayırsa da, S -400 kompleksi hələki birləşdirici detal kimi çıxış edir.

Heç sözsüz ki, sonuncu detal ABŞ-Türkiyə münasibətlərində sərinləşdirici amil rolunu oynayır. Bir ara deyildi ki, guya Vaşinqton həmin sistemin analoqunu da Ankaraya təklif edir.

Amma gec deyilmi? Sözsüz, ABŞ-la hətta Avropa ölkələri arasında ziddiyyətlərin yaşandığı məqamda Vaşinqton - Ankara münasibətlərinə bundan yaxşısını arzulamaq sadəlövhlük olardı.

Fəqət, Türkiyə səmtində soyuqluq xüsusilə nəzərə çarpır. İndi belə deyilir ki, Kreml hətta Türkiyə üçün hazırladığı S - 400 komplekslərini vaxtından əvvəl təhvil verməyi planlaşdırır. Amma bir məsələ var ki, iyun Türkiyədə böyük seçkilər ayıdır və artıq bu həftənin sonunda çox məsələlərə aydınlıq gələcək. Güman, ABŞ-da da buna diqqət kəsiliblər.

Əvvəllər belə məsələləri Vaşinqton fərqli üsullarla yoluna qoyurdu, fəqət, indi başqa vaxtdır. Həm də iki il bundan əvvəl "klassik üsul"lardan birini sınamaq istədilər, amma istəklərinə çatmadılar. Böyük ehtimalla hazırda diqqətləri həftə sonuna yönəlibdi. Amma biz Türkiyəylə Qərb arasında daha səmimi münasibətlərin olmasını istərdik.

Üstəlik, Rusiya ilə bağlı uzunmüddətli, strateji planlar qurmağın qəti mənası yoxdur; Rusiya indi sadəcə, bir az böyük Şimali Koreyadır. Putin Tramp-In görüşü ərəfəsində deməşdi ki, koreyalılar ot yeyər, amma raket və nüvə silahından imtina etməzlər.

Fəqət, göründü ki, heç də belə deyil, Şimali Koreya camaatı ot yox, çörək istəyir. Düşünürük ki, tox həyat elə rusların da könlündən olardı...

YENİ MÜSAVAT
N 132 (7021) 21 iyun 2018

**İyunun 21-23-də Avstriyanın paytaxtı Vyanada Neft İxrac Edən Ölkələr Təşkilatının (OPEK) "Neft-Dayanıqlı gələcək üçün əməkdaşlıq" mövzusunda 7-ci beynəlxalq seminarı keçiriləcək. Azərbaycanın energetika naziri Pərviz Şahbazovun "Dünya iqtisadiyyatı üçün neftin gələcəyi" adlı beşinci sessiyada çıxışı nəzərdə tutulub. Bundan başqa, energetika nazirinin OPEK-ə Üzv və Kartelə Daxil Olmayan Ölkələrin Nazirlərinin Birgə Monitorinq Komitəsinin 9-cu iclasında da iştirakı planlaşdırılır.**

# OPEK ölkələri toplanır - hasilat artırılacaq, qiymət isə...

## İlham Şaban: "İstehsal artırılsa da, neftin qiymətinin ucuzlaşacağı gözlənilmir"

**"Yeni Müsavat"a danışan ekspert İlham Şaban bildirib ki, bu toplantıda neft hasilatının artırılması gözlənilir:**

"İstehsalın artırılması ilə bağlı təkliflər var. Bu isə onunla əlaqədardır ki, hazırda dünya bazarında neftin qiyməti yüksək həddədir. Qeyd edilir ki, bütün planlar həyata keçirilir, ədalətli qiymət bərpa olunur. Baxmayaraq ki, bir sıra ölkələr, o cümlədən Səudiyyə Ərəbistanı, Rusiya komfortlu qiyməti 70-80 dollar arasında hesab edirlər. Ancaq Amerika kimi ölkə hesab edir ki, dünya bazarında neftin qiyməti kifayət qədər yüksəkdir və bu, bütün ölkələrin maraqlarına cavab vermir. Ona görə də hasilatın bir qədər artırılacağı ilə bağlı mətbuata sızmalar var. Düşünürəm ki, bu toplantı bir qədər gərgin keçəcək. Toplantı üçün ayın 21-23-ü olmaqla, kifayət qədər də zaman ayırıblar. Həm OPEK ölkələri, həm də energetika, neft nazirləri müxtəlif səviyyələrdə görüşəcəklər. Artıq o görüşdən öncə siyasi çalarlar da müşahidə olunur. Belə ki, İran görüşə getməkdən imtina edib. Aydındır ki, o, nə üçün bu cür addım atdı. Çünki İran gözləyirdi ki, OPEK ölkələri, yəni onunla iqtisadi blokda olan tərəfdaşları Amerikanın may ayında ona qarşı atdığı sanksiyalara qarşı öz dəstəyini göstərəcəklər. Ancaq bu, heç də belə olmadı. Artıq ölkələr konkret olaraq İranın kvotasını bölmək uğrunda mübarizə aparırlar. İlk olaraq Səudiyyə Ərəbistanı İranın bütün kvotasının özü tərəfindən qarşılanacağını elan edib. Baxmayaraq ki, digər ölkələr o dəqiqə səslərini çıxardılar ki, niyə sən bunu etməlisən? Elə digər ölkələr arasında da bu kvota bölünə bilər. Yəni burada heç də hər şey rəvan deyil. Ona görə də hesab edirəm ki, bu, OPEK-in bir qədər mübahisəli səviyyədə keçən konfransı olacaq".



**Ekspert bildirib ki, istehsal artırılarsa da neftin qiymətinin ucuzlaşacağı gözlənilmir:**

"İlk baxışdan belə görünə bilər ki, neftin qiyməti ucuzlaşacaq. Ancaq bütün beynəlxalq şirkətlərin proqnozlarında belə bir məsələ var ki, ilin ikinci yarısında neftə olan tələbat artıma doğru gedəcək. Ona görə ki, dünyada iqtisadi inkişaf tempi artacaq. İlin birinci yarısında klimatik hadisələr neftin qiymətinin artımında xüsusi rol oynadı. Bundan sonra bir sıra hadisələr baş verdi ki, bu, neftin qiymətinin yüksək həddə saxlanmasına gətirib çıxardı. Eyni zamanda Trampın İrana qarşı sanksiya tətbiq etməsi iki həftə dünya bazarında neftin qiymətlərinə çox güclü təsir göstərdi. Bundan sonra da hadisələr artıq dünyada inkişaf etmiş ölkələrin özünün iqtisadi deyimində neftə olan tələbatın artımına dəlalət edən proqnozlar ortaya çıxarır. Bu baxımdan da hasilatın artırılması nəyisə dəyişməyəcək. Hətta ABŞ-da şist neft hasilatının ötən ildən etibarən artmasına baxmayaraq heç də qiymətlər aşağı düşməyib. Ola bilər ki, neftin qiyməti 70 dollar həddən aşağı düşməsin. Belə olan halda isə artıq neftin illik orta qiymətinin 72 dollar səviyyəsində olması proqnozları səslənir. Bu isə ötən illə müqayisədə neftin qiymətinin təqribən 33 faiz artımı deməkdir. Qeyd edilən qiymət kifayət qədər yüksəkdir və şirkətlər, o cümlədən iqtisadiyyatı neftdən asılı olan ölkələr üçün hazırkı qiymət bir sürprizdir. Ona görə ki, 2017-ci ildə 2016-cı illə müqayisədə neftin qiymətləri 23 faiz artıb. İndi isə daha 10 faiz artım müşahidə olunur. Bu isə qeyd etdiyim kimi, həm şirkətlər, həm də iqtisadiyyatı neftdən asılı ola ölkələr üçün kifayət qədər böyük gəlirlər vəd edir".

Xatırladaq ki, 2016-cı il noyabrın 30-da OPEK üzrə gündəlik neft hasilatının 1,2 milyon barel azaldılaraq 32,5 milyon barelə endirilməsi barədə razılıq əldə olunub. Dekabrın 10-da isə Vyanada OPEK üzvləri ilə təşkilata daxil olmayan 11 ölkə, o cümlədən Azərbaycan ümumi hasilatın sutkada 558 min barel azaldılması barədə sazişə imza atıb. 25 may 2017-ci il tarixində OPEK Nazirlər Şurasının 172-ci iclası çərçivəsində Neft İxrac Edən Ölkələr Təşkilatının üzv və qeyri-üzv dövlətlər arasında neft hasilatının azaldılmasına dair sazişin müddətinin 2018-ci ilin birinci rübünün sonunadək uzadılması barədə razılıq əldə olunub. Ötən ilin 30 noyabrında isə OPEK Nazirlər Şurasının 173-cü iclası çərçivəsində Neft İxrac Edən Ölkələr Təşkilatına üzv və kartelə daxil olmayan dövlətlərin nazirlərinin üçüncü görüşündə neft hasilatının azaldılmasına dair sazişin müddətinin 2018-ci ilin sonuna kimi uzadılması ilə bağlı qərar qəbul olunub. OPEK və qeyri-OPEK ölkələrinin bu yeni razılaşmasına Azərbaycan da qoşulub.

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# Putin çempionatla dünyanı öz lehinə dəyişmək istəyir

## Elşən Mustafayev: "Onun üçün hazırda Qərblə anlaşmaq daha öndə duran vəzifədir"

## Əhəd Məmmədli: "Putin bu çempionatdan onsuz da lazımi dividentlərini götürüb"

**Hazırda Rusiyada keçirilən futbol üzrə dünya çempionatı ölkə prezidenti Vladimir Putin üçün böyük bir şans kimi dəyərləndirilir. Rus millisinin yarışda ciddi uğur qazanacağı təqdirdə bundan Kreml rəhbərinin ciddi dividentlər götürəcəyi, xalq arasında onun nüfuzunun daha da artacağı bildirilir.**

Artıq bütün işlərin Putinin istədiyi istiqamətdə getdiyini söyləmək olar. Çünki ölkəsinin millisi çempionatın qrup oyunlarında keçirdiyi hər iki oyunu qazanaraq, qrupdan çıxmağı təmin edib. Rusiya xalqının günlərdir sevinc içərisində olduğunu görməmək çətin deyil. Belə şəraitdə isə Rusiyaya Qərbdən gələn təzyiqlər, eləcə də ölkənin ciddi problemləri arxla plana keçib. Bunu da Putin iqtidarı görməmiş deyil. Rusiyanın nə qədər möcüzəli görünsə də, dünya çempionu olmasının rus xalqına necə bir sevinc bəxş edəcəyini təxmin etmək elə də çətin deyil.

**Beynəlxalq əlaqələr üzrə ekspert Elşən Mustafayev hesab edir ki, Rusiyadakı çempionat bu günə elə də rahatlıqla gəlib çıxmayıb:** "Xatırlayırsınızsa, FİFA-da rüşvət qalmaqalında, eyni zamanda 2018 çempionatının taleyi də bir müddət açıq qalmışdı. Çempionatın Rusiyada keçirilməsi qərarına yenidən baxılması ilə bağlı təkliflər olmuşdu. Sonradan Krım, Suriya problemləri ilə bağlı bu məsələ yenidən gündəmə çıxmışdı. Amma nəticə olaraq çempionat baş tutdu. İlk olaraq bu, Rusiya üçün bir psixoloji üstünlük oldu. Həmçinin Rusiya yığmasının ilk iki oyunda qələbə qazanması ölkə daxilində müsbət bir emosiya yaradıb. Belə hallarda müvəqqəti olsa da insanları birləşdirəcək bir mövzu yaranır ki, ondan da hər zaman istifadə olunur. Amma nəzərə almaq lazımdır ki, çempionatda hələ qrup mərhələləri gedir. Rusiyanın udduğu komandalar isə dünya futbol reytinqində aşağı yerlərdə olanlardır. Lakin sonrakı etaplarda nələrin olacağı hələ məlum deyil. Məlum olan odur ki, çox güclü komandalarla qarşılaşma Rusiya yığması üçün çətin olacaq. Hazırda qələbədən yaranmış eyforiya məğlubiyyətlər nəticəsində sönər və insanların öz yığmaları haqqında bir neçə il bundan öncəki təəssüratları yenidən qayıda bilər. Əgər hansısa möcüzə nəticəsində Rusiya yığması yarımfinala qədər yüksəlsə, bu nəticənin effektini bir neçə ay uzada bilərlər və ondan daxili qüvvələri toparlamaq üçün bir müddət istifadə edərlər. Putin onsuz da hər bir uğurdan maksimum yararlanmağa çalışır və baş verəcəyi halda bundan da yararlanacaq. Amma məsələ ondadır ki, Putin iqtidarının xilası və ya möhkəmlənməsi daxili qüvvələrdən elə də asılı deyil. Onun üçün hazırda Qərblə anlaşmaq, ətrafında olan ölkələrin sayını artırmaq daha öndə duran vəzifədir. Dünya çempionatını bu istiqamətdə təbliğata yönəltmək onun üçün vacibdir. Mənə elə gəlir ki, Putin üçün daha vacib olan dünya çempionatında olan mükəmməl təşkilatçılığın, sabitliyin, qonaqpərvərliyin, insanların əhvalının təbliğidir. Rusiyaya gələn qonaqların, aşağı və yüksək səviyyəli azarkeşlərin bu təşkilatçılıqdan razı qalmalarıdır. Yəni Qərb mətbuatının Rusiya ilə bağlı formalaşdırmaq istədiyi imicin əksinə görüntülər yaratmasıdır. Buna hansısa səviyyədə nail olacaq. Çünki bildiyimə görə, çempionatın keçirildiyi bütün şəhərlərdə azarkeşlər üçün maksimum komfort yaradılıb, çox ciddi təhlükəsizlik sistemi qurulub. Kənardan hər hansı provokasiya, terror hadisələri ehtimalları belə minimuma endirilib. İstənilən halda bütün dünyanın diqqət mərkəzində olan bir çempionatın Rusiyada keçirilməsinin özü artıq Putin hakimiyyəti üçün müsbət haldır. Komandasının uğurlu çıxışı olarsa, bu, əlavə olaraq daxildə patrioatik hisslərin yüksəlməsinə xidmət edər ki, bu da Rusiya üçün vacibdir. Bütün bunlarla bərabər təcrübələr göstərir ki, belə hallar hər zaman müvəqqəti olur, bir müddət sonra hətta yaddan çıxır, insanlar gündəlik problemlərinə qayıdırlar".



**Politoloq Əhəd Məmmədli bildirdi ki, dünya çempionatı daxili auditoriyaya hesablanmış bir addımdır:** "Sirr deyil ki, bu mundialı Putin pulla FİFA və UEAF-nin korrupsiyalaşmış rəhbərliyindən alıb. Necə ki, pulla Soçi Olimpiadasını almışdı. Amma bu cür tədbirlərin təsiri müvəqqətidir. Braziliyada dünya çempionatından sonra bu ölkə böyük iqtisadi, sonra da siyasi böhrana düşdü. İndi Braziliyada həmin futbol stadionlarında ot quruyub, yararsız vəziyyət alıblar. Yunanıstanda da keçirilən olimpiadadan sonra bu ölkədə siyasi çaxnaşmalar oldu, iqtisadi böhrandan yeni-yeni çıxırlar. Elə götürək Rusiyanın özünü. 1980-ci ildə ölkədə Moskva təmtəraqla olimpiada keçirdi, 11 ildən sonra SSRİ adlı dövlət dünya xəritəsindən yox oldu. Rusların indiki sevinci də müvəqqətidir. FİFA elə etdi ki, ev sahibi zəif qrupa düşsün ki, oradan çıxa bilsin. Sizi əmin edirəm ki, bu, Rusiya yığmasının turnirdə son qələbəsidir. Çempionat bitəndən sonra isə Rusiya vətəndaşları real həyata tezliklə qayıdacaqlar. Özlərini müsəlman adlandıran terrorçuların xristian və yəhudi sahibləri icazə verməzlər ki, Rusiyada terror baş versin. Bu çempionat uğurla sona yetəcək. Putin bu çempionatdan onsuz da lazımi dividentlərini götürüb. Rusiya yığmasının çıxışına gəldikdə isə 1/8 finaldan o yana bu milli gedən deyil. Zəif Rusiya futbolu üçün 1/8 final da böyük uğurdur. Putin onsuz da bu yarışa barmaq edib. Əks halda, dünya çempionatını Britaniya deyil, Rusiyaya verməzdilər. Putin yenə çalışacaq ki, yığmaları daha da irəli getsin, amma Rusiya millisi o qədər zəifdir ki, bu komandanın gücü, sadəcə, ərəblərə yetər. Necə ki, 1980-ci il olimpiadası SSRİ-ni xilas etmədi. Bu çempionat da zəif xələfi Rusiyanı xilas edən deyil".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 132 (7021) 21 iyun 2018



# Danışıqlar dalandan nə vaxt çıxacaq? - Moskva gözləmə mövqeyində

## Kreml Paşinyanın hakimiyyətini sarsıtmaq üçün Azərbaycandan istifadə edə bilər - Bakı üçün də fürsət; **alman politoloq:** "Kiçik bir təxribat Qarabağda müharibənin alovlanmasına gətirə bilər..."

**Ermənistanda hakimiyyət çevrilişindın sonra Dağlıq Qarabağ danışıqlarında qeyri-müəyyənlik azalmaq əvəzinə, artıb. Yeni baş nazir Nikol Paşinyanın Qarabağla bağlı populist, reallaşması heç vaxt mümkün olmayan təklif-tələbi onsuz da dalanda olan sülh prosesini bir az da dalana dirəyib. Təəssüf ki, ATƏT-in Minsk Qrupunun İrəvan səfəri də Ermənistanın yeni rəhbərliyini reallıq hissinə qaytara bilməyib.**




Üstəlik, həm baş nazir Paşinyanın, həm də prezident Armen Sərkisyanın qısa müddətdə işğal altındakı Dağlıq Qarabağa iki dəfə qanunsuz səfər eləməsi müharibə riskini heç vaxt olmadığı qədər gücləndirib. Münaqişə zonasındakı son durumu əcnəbi təhlilçilər də diqqətlə izləyirlər.

*****

**"Qarabağ konflikti ətrafında situasiya həqiqətən də narahatlıq doğurur". "Yeni Müsavat"ın məlumatına görə, bunu alman politoloq Aleksandr Rar "168 jam" erməni nəşrinə konflikt ətrafında son durumu şərh edərkən deyib. Onun sözlərinə görə, münaqişə zonasında vəziyyət əslində həmişə həyəcan doğurur, ona görə ki, danışıqlar prosesinin mənfi və ya müsbət mərhələlərindən asılı olmayaraq, daima hər iki tərəfdən atəş səsləri eşidilir.**

"Hazırkı situasiyanın təhlükəliliyi isə ondadır ki, tərəfləri danışıqlar stolu arxasına oturtmaq mümkün olmur və istənilən təxribat böyük hərbi hərəkətlənməyə çevrilə bilər. Nədən ki, bütün hərbi qüvvələr öz yerindədir", - deyə o qeyd edib.

**Politoloq daha sonra deyib:** "Azərbaycanın ümidləri böyükdür və erməni tərəfindən gözlədiyi addımlar məsələsində o, olduqca radikal mövqeyə malikdir. Erməni tərəfinin mövqeyi isə dəyişməz qalır. Fikrimcə, qarşı tərəflə görüşmək üçün hazırlıq var. Ancaq beynəlxalq birlik üçün hələ də tam aydın deyil ki, Ermənistanda nə baş verib. Hələ ki yeni hakimiyyətə qarşı etimad atmosferi bərqərar eləmək mümkün olmayıb. Hesab edirəm ki, ona görə danışıqlar prosesi bütöv ola bilmir".

**Politoloq Moskvada Əliyev-Putin-Paşinyan görüşünün təşkil olunmamasını də səbəb kimi görür:** "Peskovun (prezident Putinin mətbuat katibi - red.) belə bir görüş haqda danışmağın həddən artıq tez olduğunu bəyan eləməsinin sətiraltı mənası var. Belə təəssürat yaranır ki, ünsiyyət üçün atmosfer hələ yaranmayıb. Yəni elə bir ab-hava ki, belə bir görüşə imkan versin və danışıqlar prosesi sərbəst şəraitdə aparılsın".

**Alman analitikə görə, Rusiya prezidenti Vladimir Putin aktiv iş şəraitinə nail olmaq üçün Ermənistanın keçmiş hakimiyyətləri ilə illərlə işləyib.** "Yəni müəyyən tanışlıq mərhələsi lazımdır. Fikrimcə, bu, normal praktikadır. Lakin Qarabağ ətrafında mövcud situasiyaya nəzərən, bu, təhlükəli ola bilər və bunu hamı başa düşməlidir. Vəziyyəti elə həddə gətirmək olmaz ki, danışıqları aparmaq artıq gec olsun", - deyə o, xəbərdarlıq edib.

**Ekspertin fikrincə, Minsk Qrupu aktiv səylər göstərib, heç olmasa, xarici işlər nazirləri səviyyəsində görüş təşkil eləməklə təmas xəttində gərginliyi zəiflətməyə nail ola bilər.** "Mənə elə gəlir ki, həmsədrlər Məmmədyarovla Mnasakanyanın görüşünü təşkil eləməlidirlər. Ancaq onlar gecikirlər. Ola bilsin burada erməni tərəfinin yeni mövqeyi (separatçı rejimi danışıqlara qoşmaqla bağlı tələb nəzərdə tutulur - red.) də burada neqativ rol oynayır. Bu mövqeyi kənara qoymaq və tərəfləri təmaslara qaytarmaq lazımdır" , - deyə analitik əlavə edib.

*****

Lakin təmaslara qayıdış ilk növbədə Ermənistanın yeni rəhbərliyinin Dağlıq Qarabağ məsələsində konstruktiv mövqeyə köklənməsindən keçir. İşğalçı ölkədə isə artıq deyildiyi kimi, qeyri-müəyyənlik hökm sürür.

"Həm Dağlıq Qarabağda, həm də Ermənistanda vəzifədə olan adamlar arasında klan mübarizəsi gedir". "Yeni Müsavat"ın məlumatına görə, bu sözləri axar.az-a **ermənişünas alim Qafar Çaxmaqlı** deyib. O bildirib ki, Paşinyanın siyasi rəhbərliyə başlamasından sonra həm Ermənistanda, həm də Dağlıq Qarabağda gərginlik müşahidə olunur: "Paşinyanın Dağlıq Qarabağa tez-tez səfər etməsinin səbəblərindən biri budur. Çünki burada artıq Paşinyn hakimiyyətini qəbul etməyən adamlar var. Eyni zamanda qondarma rejimə rəhbərlik edənlər arasında Paşinyanın qəbul etmədiyi şəxslər mövcuddur. O, həmin şəxsləri hakimiyyətdən uzaqlaşdırıb, öz adamlarını bura yerləşdirmək üçün bölgəyə səfərlərinin sayını artırıb. Bir neçə gün əvvəl Dağlıq Qarabağda da müəyən insidentlər olmuşdu. Baş verən insidentlər də onu göstərirdi ki, həm Ermənistanda, həm də Dağlıq Qarabağda daxili siyasi və ictimai gərginlik hökm sürür. Nikol Paşinyanın hakimiyyətinin müvəqqəti olduğunu söyləyənlər də az deyil. Buna qarşı dirəniş bundan sonra da davam edəcək".

**Q.Çaxmaqlıya görə, hələ ki danışıqlar prosesini dirçəltməyə həvəsli olmayan Rusiya Paşinyan hakimiyyətinin müvəqqəti olacağını düşünür:** "Çünki Rusiyanın Ermənistanda hakimiyyətdə olmasını istədiyi adam Paşinyan deyil. Rusiya Paşinyanın hakimiyyətini sarsıtmaq üçün Azərbaycandan istifadə edə bilər. Cəbhədə gərginlik yaratmaq və belə bir fikir formalaşdırmaq istəyirlər ki, Azərbaycan bu siyasi xaosdan istifadə edib hər an hücum edə bilər. Paşinyan da bununla bağlı tədbirlər görülməsini önə çıxarır. Ermənistan hakimiyyətində olan şəxslər Qarabağa səfər etməklə qorxmadıqlarını göstərməyə çalışırlar. Burada qeyri-adi bir şey axtarmağa ehtiyac yoxdur".

**Q.Çaxmaqlının sözlərinə görə, əgər gərginlik belə davam etsə, bu, lokal savaşa çevrilə bilər:** "Yəni Azərbaycan və Ermənistan arasında Azərbaycanın işğal edilmiş ərazisində lokal xarakterli toqquşma ehtimalı var. Azərbaycan öz ərazilərini işğaldan azad etməyə hazırdır. Ermənistanda olan hər cür siyasi qarışıqlıqdan və gərginlikdən öz xeyrimizə yararlanmalıyıq".

**O, bir daha Rusiya gözləmə mövqeyində olmasına diqqət yönəldib:** "Rusiya istəmir ki, Ermənistanı öz nəzarətindən buraxsın. Çünki Paşinyan hakimiyyəti Qərbə meylli siyasət ortaya qoyub. Amma Rusiyanın əlində yetərli rıçaqlar var ki, Ermənistanı özünə tabe eləsin və Ermənistana öz siyasətini diktə eləsin".

**Çaxmaqlı onu da vurğulayıb ki, həmsədrlər iki ölkə arasında danışıqların davam etdirilməsində maraqlıdırlar:** "Paşinyan hakimiyyətə gələr-gəlməz, bəyanat verdi ki, Dağlıq Qarabağ separatçıları da bu prosesə qoşulsun. Bu mümkün deyil. Çünki orada qanuni hakimiyyət yoxdur. Bu da danışıqlar prosesini uzatmaq üçün Ermənistan hakimiyyətinin növbəti cəhdidir. Ermənistan status-kvonu davam etdirmək istəyir. İllərdir ki, bu prosesi bir bəhanə ilə uzadırlar. Bu məsələnin həlli üçün Ermənistan tərəfindən heç bir normal addım atılmayıb".

*****

Lakin hazırda unikal bir vəziyyət yaranıb. Məsələ ondadır ki, işğalçı tərəf indi status-kvonu hiyləgərcəsinə Rusiya orbitindən uzaqlaşa biləcəyi ilə bağlı mesajlar fonunda uzatmağa çalışır. Bu isə faktiki, yeni situasiyadır. Özü də Moskvanın maraqlarına cavab verməyən situasiya. Yəni konkret halda status-kvonun uzanması Azərbaycan kimi Rusiyanın da maraqlarına cavab verməyə bilər. Söhbət Ermənistanı, Paşinyan hökumətini cəzalandırmaq üçün Azərbaycana lokal hərbi əməliyyatlar üçün *(təxminın 4-5 günlük)* "dobro" verməkdən gedir. Moskva da, Bakı da fürsət gözləyir...



## Avropa Birliyi Qarabağ münaqişəsinin uzanmasından narahatdır

**"Həll olunmamış Dağlıq Qarabağ münaqişəsi regionda sabitliyin və rifahın möhkəmlənməsinə əngəl olaraq qalır". Bu barədə Avropa Birliyinin (AB) saytında yerləşdirilən məlumatda deyilir.**

Məlumatda qeyd olunur ki, AB hesab edir ki, münaqişə tez bir zamanda beynəlxalq qanunvericiliyin norma və prinsiplərinə tam uyğun olaraq öz həllini tələb edir.

"2003-cü ildən AB-nin xüsusi nümayəndəsi qurum və region ölkələri arasında dialoq yaratmaq və region ölkələrinə qarşı AB-nin siyasətinin hazırlanmasına hərtərəfli kömək etmək üçün işləyir. AB habelə Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi vasitəsilə ATƏT-in Minsk Qrupunun sədr ölkələrinin (Fransa, Rusiya, ABŞ) münaqişənin həllinə yönəlmiş səylərini dəstəkləyir və tamamlayır".

Azərbaycan Respublìkasının Prezìdentì yanında Kütləvì İnformasìya Vasìtələrìnìn İnkìşafına Dövlət Dəstəyì Fondunun malìyyəsì əsasında. Səhìfənì hazırladı: Sìyasət şöbəsì

YENİ MÜSAVAT
N 132 (7021) 21 iyun 2018



# "Rusiya 2020-ci illərdə dağılacaq" iddiasına reaksiya

## ABŞ "dərin dövləti"nə bağlı olan təşkilatın Rusiya haqqında şok proqnozunun əsası varmı?

**Dünya gündəminin əsas mövzularından biri Rusiya-ABŞ, Rusiya-Qərb münasibətləridir. İllərdir sanksiyalar qarşısında dirəniş göstərən Rusiyanın gələcəyi ilə bağlı ən müxtəlif proqnozlar verilir. Artıq bir sıra beynəlxalq miqyasda tanınan ekspertlər Rusiyanın dağılacağı ilə bağlı konkret tarix belə göstərirlər. Qeyd edirlər ki, dünyanın ərazicə ən nəhəng dövlətinin yaxın tarixdə bir neçə hissəyə ayrılması qaçılmazdır.**

Bugünlərdə belə bir proqnozu Amerika politoloqu, "Stratfor" özəl kəşfiyyat-analitika şirkətinin qurucusu və direktoru Con Fridman Polşa mətbuatına -"Polska Times"ə müsahibəsində bildirib ki, 2020-ci illərdə Rusiya dağılacaq: "Rusiya güc itirməkdədir. Sovet İttifaqının dağılması onun üçün son deyil, yeni mərhələnin başlanğıcıydı, amma indi neft qiymətlərindən asılı olan böyük, qeyri-effektli olaraq qalmaqla SSRİ-nin sonunun bütün səhvlərini təkrarlayır. Neftin 30 dollara olduğu əvvəlki qiymətlər Rusiya üçün faciə idi, indiki durumu isə sadəcə, qəliz adlandırmaq olar. Rusiyalılar son üç ildə məruz qaldıqları ziyanı qismən əvəzləmək imkanı əldə ediblər. Onların eyni zamanda energetika bazarında baş verən dəyişiklikləri - ABŞ-ın tezliklə dünyada ən böyük neft istehsalçısı olacağını - nəzərə almağı lazımdır.

Amerikalıların onlara gərəkdiyindən daha çox nefti var, ona görə də onu satmağa başlayacaqlar, bu isə Rusiya və müttəfiqləri üçün problemlər yaradacaq. Fikir verin, Rusiya iqtisadiyyatı nə qədər zəifdir. Son üç ildə neftin aşağı qiymətlərinə görə əziyyət çəkib, dövlət özünü təmin etmək iqtidarında deyildi. Çağdaş Rusiya üçüncü dünya ölkəsinə çevrilib, təbii resursların nəzarət etmədiyi ixracat qiymətləri hesabına yaşayır. Bu bildirir ki, o, öz gələcəyinə nəzarət etmir. Amma eyni şey bütün dünyadakı böyük ixracatçılara da aiddir. Yaxşı inkişaf etmiş daxili bazarlı ölkə bundan yayına bilər".

### Bəs Azərbaycanda bu proqnozlara necə yanaşılır?

**Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər "Yeni Müsavat"a bildirdi ki, ABŞ-da, Avropada SSRİ-ni dağıtmaq planları SSRİ yaranan gündən mövcud olub:** "Nəhayət, qarşıya qoyulan məqsədə nail olundu. SSRİ dağıldıqdan sonra ABŞ-da, eyni zamanda Qərbdə iki cərəyan formalaşmağa başladı. Bir cərəyan hesab edirdi ki, Rusiya bütöv olaraq qalmalıdır. Çünki Rusiya böyük nüvə dövlətidir və belə bir dövlətin parçalanması nüvə silahları üzərində nəzarətin itirilməsinə gətirib çıxara bilər, nüvə silahları terrorçu qruplarının və təhlükəli dövlətlərin əlinə keçə bilər. Ona görə də bir cərəyan Rusiyanın bütövlüyünün saxlanmasını, amma demokratikləşməsini və imperiya ambisiyalarından əl çəkməsini istəyir. Digər cərəyan isə düşünürdü ki, Rusiya özü imperiyadır və ona görə də onu da dağıtmaq lazımdır. Bu iki cərəyanın mübarizəsi daim gedib. Hər zaman da ABŞ-ın dərin dövlətində, yeni kəşfiyyat və hərbi dairələrində, strateji məsələlərlə məşğul olan qurumlarında həmişə bu cərəyanlar olub və bu gün də var. "Stratfor" və onun qurucusu da məhz bu ikinci cərəyanın fikirlərini ifadə edir. Mənim qənaətimə görə, hətta Tramp administrasiyasının daxilində belə hər iki cərəyanın nümayəndələri mövcuddur. Trampın özü birinci cərəyanın tərəfindədir".

**S.Əkbər hesab edir ki, Fridmanın fikirləri reallaşması mümkün olan fikirlərdir:** "Məgər Rusiya Federasiyası SSRİ-dən güclüdür ki, biz həmin fikirləri reallaşması mümkün olmayan mülahizələr adlandıraq? Zamanında SSRİ-nin də haqqında bu cür proqnozlar səsləndirilində çoxları bunu mümkünsüz sayırdı. Amma mümkün oldu. Əgər böyük bir qlobal imperiya dağılıbsa, Rusiyanın bölünməsi də mümkünsüz deyil. ABŞ Konqresi ölkənin müdafiə büdcəsini təsdiq etdi -716 milyard dollar. Rusiyanın ötənilki hərbi büdcəsi azalıb 67 milyard dolların altına düşmüşdü. Bu il də bu rəqəmə yaxındır. 716 milyardla 67 milyardı müqayisə edin, onda müəyyən bir fikrə gələ bilərsiniz. ABŞ-dan verilən iddialı açıqlamaların arxasında dayanan məsələlərdən biri də bu rəqəmlərdir".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Qətər böhranının 1 ili - nələr dəyişdi...

## Ərəb ölkələri Qətəri diz çökdürmək üçün ağlagəlməz layihələrə imza atırlar



**Qətər və körfəz ərəb ölkələri arasında böhranın bir ili tamam oldu. Ancaq gözlənildiyi kimi, ərəb rejimləri nəinki barışmadılar, əksinə, münaqişə bir az da dərinləşir. İndi isə məlum olub ki, Səudiyyə Ərəbistanı Qətərlə sərhəddə kanal çəkdirməyə hazırlaşır. Bu layihə reallaşacağı təqdirdə yarımada olan Qətər adaya çevriləcək və Ərəbistan yarımadası ilə quru sərhədi ortadan qalxacaq.**

"Sputnik"in bu barədə xəbərində qeyd olunur ki, iyunun 25-də Səudiyyə Ərəbistanı Qətərlə sərhəddə kanal tikintisi ilə bağlı tender elan edəcək. Bu barədə krallıqda dərc olunan "Məkkə" qəzetində məlumat verilib. Qəzetə açıqlama verən qaynaq bildirib ki, hazırda kanalın tikintisinə 5 beynəlxalq şirkət maraq göstərir. Tenderdə qalib gələn şirkətin adı 3 ay ərzində elan ediləcək, bundan sonra isə kanalın tikintisi başlayacaq. Ümumilikdə isə kanalın tikintisi üçün 1 il vaxt ayrılıb.

Hələlik Qətər və Səudiyyə Ərəbistanı rəsmi qurumları kanal layihəsi ilə bağlı açıqlama verməyib. Ancaq media artıq kanal layihəsinin detallarını yazmağa başlayıb. Məlum olub ki, yeni su kanalının uzunluğu 60 kilometr, eni 200 metr, dərinliyi isə 15-20 metr olacaq. Layihənin dəyəri 2,8 milyard Səudiyyə riyalı, yaxud 746 milyon dollar təşkil edəcək. O da məlum olub ki, kanal Səudiyyə-Qətər sərhədinə 1,5 kilometr məsafədə çəkiləcək. Kanal və Qətər sərhədi arasındakı ərazi isə Səudiyyə Ərəbistanı Müdafiə Nazirliyi və Sərhəd Mühafizə Xidməti tərəfindən istifadə olunacaq.

Krallıq Qətərlə sərhəddəki kanaldan fayda götürməyi planlaşdırır. Belə ki, kanal boyunca lüks hotellər, sanatoriyalar, villalar, yaxtalar üçün limanlar, su idmanı mərkəzləri və istirahət-əyləncə mərkəzləri tikiləcək. Bundan başqa kanalda iri gəmiləri qəbul edə biləcək 3 liman da tikiləcək. Bu isə Qətərlə sərhədin Səudiyyə Ərəbistanının yeni turizm cənnəti olacağını göstərir. Xatırladaq ki, vəliəhd-şahzadə Məhəmməd bin Salman ötən ilin noyabrında ölkəsinin İordaniya ilə sərhədində yeni turizm və texnologiya şəhərciyi hesab olunan NEOM layihəsini elan edib. 26 min kv.km ərazidə yerləşəcək NEOM layihəsi Dubay formasında turizm və əyləncə şəhəri tikiləcək. Burada şəriət qaydaları nisbətən yumşaq olacaq, yerli və xarici vətəndaşların istirahət və əyləncəsi üçün hər cür şərait yaradılacaq. Bundan başqa, 500 milyard dollar dəyərində qiymətləndirilən layihə müasir texnologiyaların tətbiq olunduğu mərkəz olacaq.

Belə görünür ki, şahzadə ikinci layihəni Qətərlə sərhəddə qurmağı planlaşdırır. Bununla həm Qətərə qarşı tətbiq olunan embarqo dərinləşəcək, ölkənin Səudiyyə Ərəbistanı ilə olan yeganə quru sərhədi də ləğv olunacaq, eyni zamanda yeni bir turizm və infrastruktur layihəsi işə düşəcək.

Təbii ki, kanal layihəsi iki ölkə arasındakı münasibətləri daha da pisləşdirəcək. Xatırladaq ki, 2017-ci ilin iyununda Səudiyyə Ərəbistanı, Misir, Bəhreyn, Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ), Yəmən və Liviya Qətəri regionda qeyri-sabitlik yaratmaqda ittiham edərək bu ölkə ilə diplomatik əlaqələri dayandırıb. Ərəb körfəz ölkələri bəyan edib ki, Qətər terror təşkilatlarını, o cümlədən "Müsəlman-qardaşlar" qruplaşmasını dəstəkləyir. Bu qərar elan olunduqdan dərhal sonra Səudiyyə Krallığı Qətərlə sərhədləri bağlayıb, bu ölkə ilə quru, dəniz və hava əlaqələrini dayandırıb. Hətta sərhədlərin bağlanması səbəbi ilə Qətərə məxsus yüzlərlə heyvan susuzluqdan ölüb. Səudiyyə Ərəbistanı sərhədləri yalnız Həcc ziyarəti zamanı qətərli zəvvarların üzünə açıb. Yaranmış vəziyyət Qətərdə ərzaq qıtlığına səbəb olub, yalnız Türkiyə və İran hökumətləri Qətərə təcili ərzaq və qida göndərməklə kiçik ölkədə ərzaq qıtlığı yaranmasının qarşısını alıblar.

Qeyd edək ki, Qətərə qarşı əsas ittiham bu ölkənin terroru maliyyələşdirməsi ilə bağlı olub. Ancaq konkret olaraq hansı qruplaşmaya və nə zaman maliyyə ötürməsi haqda detallı bilgi yoxdur. Bəzi müşahidəçilərə görə, söhbət İraq ərazisində ov edərkən əsir düşən qətərlilərin azad edilməsi üçün ödənən puldan gedir. Belə ki, iddialara görə, 2017-ci ilin əvvəlində İraqda ov edən Qətər hakim ailəsinə mənsub 26 əsilzadə yerli "Hizbullah Briqadaları" adlı qruplaşma tərəfindən girov götürülüb. Daha sonra onların azad edilməsi üçün Qətər hakimiyyəti həm qruplaşmaya pul ödəyib, həm də Suriyada mühasirədə olan şiə qəsəbələrini azad etməsi üçün radikal silahlı qruplara pul ödəyib. Ümumilikdə Qətərin şahzadələri azad etmək üçün 1 milyard dollara yaxın pul xərclədiyi və bunun 400 milyona qədərinin Tehrana çatdığı iddia olunur. İddialara görə, məhz bu hadisə ərəb ölkələrini, xüsusən də İranla düşmən vəziyyətində olan Səudiyyə Ərəbistanını qəzəbləndirib, o da bunu İranla gizli əməkdaşlıq olaraq təqdim edib.

Qətər hökuməti hələlik ərəb ölkələrinin təzyiqlərinə Türkiyə və İranın dəstəyi ilə davam gətirir. Bu günlərdə Qətər əmiri İran prezidenti ilə telefonla danışaraq iki ölkə münasibətlərinin yaxşıladırılması ilə bağlı müzakirələr aparıb. Qətər böhranı silahlı müdaxiləyə çevrilməsə də, onsuz da dərin böhran keçirən Yaxın Şərqdə vəziyyəti daha da mürəkkəbləşdirib.

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

# "Ölüm qrupu"nda "cənazə günü":

## Bu gün C və D qrupunda ikinci turun oyunları başlayır; Argentina-Xorvatiya qarşılaşması "ölüm qrupu"nda vəziyyəti aydınlaşdıracaq

**Bu gün C və D qrupunda ikinci turun oyunları başlayır. Saat 16:00-da Danimarka - Avstraliya milliləri qarşılaşacaq. 19:00-da C qrupundakı digər iki komanda- Fransa və Peru meydana çıxacaq. Saat 22:00-da isə D qrupunda Argentina və Xorvatiya oyununun startı veriləcək.**



# Messi, hələ getmə...

### Avstraliya üçün son şans

İlk turda həm Fransa, həm, Danimarka minimal hesabla rəqiblərinə qalib gələrək ilk 3 xalı hesablarına yazdıra biliblər.

Avstraliya Fransa ilə ilk oyunda gözlənilən müqaviməti göstərə bilmədi. Oyunun 55-ci dəqiqəsində Antuan Qrizmannın cərimə meydançasında yıxılması ilə ilk dəfə olaraq video-təkrar sisteminə müraciət edildi və Avstraliyanın qapısına 11 metrlik cərimə zərbəsi təyin edildi. Qrizmann özü cərimə zərbəsini məharətlə yerinə yetirdi. Avstraliya millisinin üzvləri isə oyundan sonra da iddia etdilər ki, onların müdafiəçisi Qrizmannın ayağına deyil, topa oynamışdı.

Avstraliya özü də tezliklə 11 metrlik vurmaq hüququ qazandı. Belə görünürdü ki, oyun heç-heçəyə doğru gedir. Amma bu dəfə də Poqbanın qapı çatına dəyən topu mübahisə yaratdı. Bu dəfə daha bir texnika- goal-line technology (GLT) işə düşdü və qolu qeydə aldı. Beləliklə, Fransa oynadı, texnika qalib gəldi...







Avstraliya millisi dünya çempionatlarında 5-ci dəfədir ki, iştirak edir. Yalnız 2006-cı ildə qrup mərhələsini adlaya biliblər. Amma bu çempionata gəlmək üçün Avstraliya ümumilikdə 22 oyun keçirib. Tarixdə bir təsnifat mərhələsi daxilində bu qədər çox matç keçirən komandaya rast gəlinməyib. Elə bu səbəbdən Avstraliya alqışlanmağa layiqdir.

Komandanın baş məşqçisi Bert van Marveyk 2018-ci ilin yanvarından bu posta təyin olunub. Onun yığmada ilk böyük sınağı uğursuz olsa da, şansları hələ itirilməyib.

Danimarka və Avstraliya milliləri indiyədək cəmi üç dəfə yoldaşlıq görüşündə qarşılaşıblar. 2007, 2010 və 2017-ci illərdə. İki görüşdə Danimarka üstün olub, bir görüşdə isə Avstraliya qalib gəlib. Danimarka FİFA reytinqində 12-ci, rəqibləri isə 36-cı yerdə qərarlaşıb. Danimarka bu gün qrupdakı mövqeyini möhkəmlədə, ya da pley-off istəklərini gerçəkləşdirə bilər. Avstraliya da vəziyyətlərini başa düşdüyündən, daha yaxşı oynamaqdan başqa yolları qalmır.

### Fransa Perunun müqavimətin qıra biləcəkmi?

Peru 36 il sonra mundial arzularını gerçəkləşdirib və adama elə gəlir ki, xüsusi iddiaları olmamalıdır. Amma bu, ilk baxışdan verilən qiymətdir. Komandanın baş məşqçisi 60 yaşlı argentinalı Rikardo Qareka hələ püşkatma zamanı demişdi ki, mundialda asan rəqib axtarmaq lazım deyil. Onun sözlərinə görə, Perunun "ölüm qrupu"na düşdüyünü zənn etmir. "Bir də görürsən ki, asan görünən rəqib çətin, çətin görünən isə asan rəqib olur. Bu səbəbdən də yaxşı oynamaq əsas şərtdir" deyə, o bildirib.

Peru Danimarka ilə ilk görüşdə məğlub olsa da, mübariz komanda əhvalı yaratdı. Belə ortabab komandalar mundialda sensasiya yaratmaq gücündə deyillər, amma uduzmaq üçün gəlmədikləri bəllidir. Peru ilk oyunda 11 metrlik cərimə zərbəsini və bir neçə real qol vəziyyətini reallaşdıra bilmədi. Əgər o vəziyyətlər qolla nəticələnsəydi, Danimarka uduzan tərəf olacaqdı. Poulsenin müdafiənin səhvindən istifadə edərək qol vurması Danimarkaya istədikləri nəticəni verdi. Bu gün isə Perunun rəqibi daha güclüdür.





20 il əvvəl-1998-ci ildə ölkələrində keçirilən mundialda dünya çempionu olan Fransa millisini hələ ki, çempionluğa əsl iddialı kimi təqdim etmək doğru olmaz. O qədərdə güclü olmayan Avstraliya millisinə qarşı ilk qarşılaşmada baxımlı oyun görmədik.

Bu gün Perunu fransızlar üçün "rahatlukum" hesab etmək də olar, amma "İslanmışın yağışdan nə qorxusu?" Peru müqavimət göstərəcək və ən azı şansını son tura daşımağa çalışacaq. Fransa milliləri isə 6 xal qazanıb 3-cü tura rahat başlamaq istəyində olacaqlar.

Bu komandalar indiyədək iki dəfə qarşılaşıblar. İlk dəfə 1960-cı il Yay Olimpiadasında Fransa Perunu 2:1 hesabı ilə məğlub edib. Sonuncu dəfə isə 1982-ci ildə isə yoldaşlıq görüşü olub. Fransa bu dəfə öz meydanında 0:1 hesabı ilə məğlub olub.

Bu gün kimin istəyi gerçəkləşcək, bunu axşam biləcəyik...

### Argentina çətin durumda

D qrupunda yer alan Argentina və Xorvatiya bu gün tarixlərində 5-ci dəfə güclərini sınayacaqlar. Komandalar arasında ilk görüş 1994-cü ildə baş tutub. Zaqrebdə keçirilən görüşdə hesab açılmayıb. 1998-ci ildə isə mundialın final mərhələsində onlar H qrupunda birgə mübarizə aparırdılar. O qarşılaşmada Argentina rəqiblərinə 1:0 hesabı ilə qalib gəlib. 2006-cı il və 2014-cü illərdə isə komandalar arasında yoldaşlıq görüşləri olub. Bu oyunlarda da tərəflər bir dəfə qələbə qazanıb.

FİFA reytinqində 5-ci sırada qərarlaşan Argentina mundial başlayan kimi yenə ciddi tənqid hədəfi olub. İslandiya ilə ilk qarşılaşmada Argentina rəqiblərinin müqavimətini qıra bilmədilər. 1978 və 1986-cı illərdə dünya çempionluğunu bayram etmiş cənubi amerikalılar neçə mundialdır ki, medalsız qalırlar.

2014-cü ildə bu arzuya yaxın idilər, amma son Almaniya buna imkan vermədi. Argentinanın ideal formada olmadığı hələ seçmə mərhələdən aydın idi. Yada salaq ki, Argentina hətta bu mundiala gəlməyə də bilərdi. Amma komanda özünü toparlayıb mundiala vəsiqəni təmin etdi.

"Sevilya"nın eks baş məşqçisi Xorxe Sampaolini bir ildən çoxdur komandanın baş məşqçisi olsa da, milli heç də çempionluğa iddialı kimi oyun göstərmədi. Yəni Argentina seçmə mərhələdə necə oynayırsa, yenə o gündədir. Argentina əlbəttə ki, mundialın yaraşığıdır, amma getdikcə bu yaraşıq itir, komanda oyunu yox, fərdi oyunçuların komandasına çevrilir. Heyətində Xavyer Maskerano və Anxel Di Mariya kimi yarımmüdafiəçilər, Messi, Aquero, İquain və Dibala kimi hücumçuları olan bir komandanın mundialın debütantı ilə heç-heçə etməsinə haqq qazandırmaq olarmı? İslandiya əla komandadır, amma qarşısındakı Argentinadır e...Ar-gen-ti-na!

Bu gün Argentinanın işi daha çətin olacaq. Əgər komanda ilk qarşılaşmadakı kimi "dişsiz" hücumlarla oyunu yola vermək istəyəcəksə, bu mümkün olmayacaq. Çünki Xorvatiya ilk oyunda həm qalib gəlib 3 xal qazanıb, həm də meydanda yaxşı oyun göstərib.

Xorvatiya stabil komanda deyil, amma komanda oyunu onlarda alınır. Mario Mandjukiç, İvan Perişiç, Luka Modriç, İvan Rakitiç Xorvatiyanın ulduzları olaraq bu çempionatın startında yaxşı oyun göstərdilər. Onlar bu gün Argentinaya qalib gəlmək üçün çalışacaqlar, heç-heçə də sərfəli nəticə olacaq. Argentina isə mütləq qalib gəlməlidir. Yoxsa, məşhur lətifədə deyildiyi kimi, biabırçılıq olacaq. Bədlik olmasın, bu gecə "ölüm qrupu"nda "cənazə" günü də ola bilər...

❑ **Nazim Sabiroğlu**
**"Yeni Müsavat"**




# «Bakcell» sosial mediada cavablandırılmış müraciətlərə görə ən yüksək nəticə göstərdi

**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi «Bakcell» şirkəti növbəti dəfə nüfuzlu beynəlxalq "Socially Devoted" sertifikatı ilə təltif olunub.**

**Xüsusi analitik platforma vasitəsilə dünya üzrə məşhur şirkətlərin sosial şəbəkələrdəki fəaliyyətinin monitorinqi ilə məşğul olan tanınmış "Socialbakers" şirkəti Azərbaycandakı şirkətlərin "Facebook" şəbəkəsində 2018-ci ilin I-ci rübü üzrə fəaliyyətlərini nəzərdən keçirib. Həmin monitorinqin nəticələrinə əsasən, «Bakcell» şirkəti 2018-ci ilin yanvar ayından mart ayına qədər olan müddət ərzində özünün rəsmi "Facebook" səhifəsinə daxil olmuş müraciətlərin 100%-ni cavablandırıb. Qeyd edək ki 2017-ci ildə «Bakcell» dörd dəfə abunəçi sorğularının cavablandırılması üzrə "Socially Devoted" sertifikatına layiq görülüb. "Bakcell"in "Facebook" səhifəsinin 400 mindən artıq istifadəçisinin olması bu nailiyyəti daha da vacib və təqdirəlayiq edir.**

**Sosial media vasitələri məhsul və xidmətlər haqqında məlumatların geniş abunəçi bazasına daha effektiv şəkildə çatdırılması və müştərilərin suallarının cavablandırılması baxımından "Bakcell"in vacib kommunikasiya vasitələrindən biridir. Şirkətin bir çox populyar sosial şəbəkədə rəsmi səhifəsi fəaliyyət göstərir.**

**Yüksək keyfiyyətli xidmətin göstərilməsi və müştəri məmnuniyyəti "Bakcell"in fəaliyyətinin prioritet istiqamətlərindəndir. Şirkətin müştəri məmnuniyyəti strategiyası dünyanın aparıcı şirkətləri və əhalinin bütün təbəqələrinin tələb və ehtiyaclarının nəzərə alınması ilə yanaşı yerli bazarın tələblərinə əsaslanır.**

**«Bakcell» abunəçiləri şirkətin həftənin 7 günü, günün 24 saatı ərzində abunəçilərə yüksək keyfiyyətli xidmət göstərən "555" Məlumat Mərkəzinə və ya sorğuların rekord həddə 100% cavablandırılmasını təmin edən "Facebook" səhifəsinə müraciət edə bilərlər.**

## Elan

**Azərbaycan Dövlət Bədən Tərbiyəsi Akademiyasının IV kurs tələbəsi Qasımov Mirrəsul Tahir oğlunun adına olan tələbə bileti itdiyi üçün etibarsız sayılır.**




# Hafiz Hacıyevin şortikli kişilər dərdi..

## Partiya sədri Bakıda şortik geyinən kişiləri fitə basmağı təklif etmişdi

**Bir neçə gün əvvəl Bakı metrosunda gənc qızın geyiminə görə qalmaqal yaranıb. Əvvəl şortik geyinən qızın oturuşu insanların qınağına səbəb olub. Qızla üzbəüz əyləşən kişi onun oturuşuna və geyiminə irad tutub. Bu isə gənc qızın xoşuna gəlməyib və aralarında mübahisə yaranıb. Sonradan mübahisəyə bir qadın da qoşulub və qarşı tərəfin verdiyi cavablara əsəbiləşib ona hücum çəkib. Ətrafdakıların müdaxiləsi ilə mübahisə nisbətən səngiyib.**

Metrodakı qalmaqalın videogörüntüsü sosial şəbəkələrdə geniş müzakirələrə səbəb olub. Kimisi qıza haqq verib, kimisi ona hücum edən qadına...

Şortik mövzusu zaman-zaman medianın gündəminə gəlib. Metrodakı şortik davası illər əvvəl Hafiz Hacıyevin yaratdığı məşhur qalmaqalı da xatırlatdı. Novxanıda yerləşən məşhur restoranlarda "şortik qadağası" qoyulmuşdu. Onda da şortik məsələsi ictimaiyyət tərəfindən geniş müzakirəyə səbəb olmuşdu. Ən kəskin cavab isə partiya sədri Hafiz Hacıyevdən gəlmişdi. O bildirmişdi ki, Bakıda şortik geyinən kişiləri fitə basmalıdırlar, onları saxlayıb lağa qoyub demək lazımdır ki, "ay əxlaqsız, ay şərəfsiz sən bədənini kimə göstərirsən?".

**Partiya sədri şortik geyinən kişilərə pis baxdığını bildirmişdi:** "Artıq Azərbaycan xalqı bəzi adət-ənənələrini itirib. Avropada mənfi məqamlar görən kimi gəlib ölkəmizdə bunu tətbiq etmək istəyirik. Artıq artistlərimizin bir hissəsi bu milləti pozdu. Azərbaycan televiziyaları isə əxlaqsızlığı yaymaqda bir nömrəli rol oynadılar. Nə qədər açıq-saçıq geyinən varsa onların hamısını nümayiş etdirdilər. Bunları görən bəzi oğlanlar bədənlərini nümayiş etdirməyə başladılar. Şortik geyinən şəxslərin əksəriyyəti harınlamış adamlardır. Özlərini aristokrat kimi təqdim etmək istəyirlər. Bunlar mənasız, dar düşüncəyə malik olan insanlardır. Azərbaycan siyasiləri utanmamalıdır, belə məsələyə reaksiya verməlidirlər. Abır-həyası, əxlaqı olan adam şortik geyinməz".

H.Hacıyev çıxış yolu kimi şortik geyinən kişilərin qılçasına "kislota" tökülməsini tövsiyə etmişdi: "Onlara qarşı bir tədbir görülməlidir. Şortik geyinən kişiləri fitə basmalıdırlar, onları saxlayıb lağa qoyub, qılçasına "kislota" tökmək lazımdır ki, tövbə edib bir daha şortik geyinməsin".

Buna bənzər olay 2 il əvvəl qonşu Türkiyədə də baş verib. Qurban bayramının birinci günündə Ayşegül Terzi adlı gənc qız şortiklə avtobusa minib. Bu zaman salondakı sərnişinlər tərəfindən bayram günü şortik geyindiyi üçün qıza hücum edilib. 23 yaşlı qız döyülərkən nə sürücü, nə də digər sərnişinlər baş verənlərə müdaxilə etməyib. Üstəlik, qıza "Şortik geyinənlər ölməlidir!", "Sən şeytansan!" deyə ifadələr də səsləndiriblər.

Şortikə gəlincə, nə Azərbaycanda, nə də Türkiyədə şortik geyilməsi qanunla qadağan edilməyib. Azərbaycan Konstitusiyasında deyilir ki, hər kəsin hüquq və azadlığı digərlərin hüquq və azadlığı ilə məhdudlaşır. Heç kimin hüquqlarını nəyəsə görə məhdudlaşdırmaq olmaz. Başqasının hüququnu pozmursansa və qanunla qadağan deyilsə, hərəkətində sərbəstsən.

**❑ Ləman MUSTAFAQIZI, "Yeni Müsavat"**

# "Nar" qəbul imtahanlarında 700 bal toplamış abituriyentləri mükafatlandıracaq

**"Nar" 2018-ci ildə də ali məktəblərə qəbul imtahanları zamanı ən yüksək nəticə göstərərək 700 bal toplamış abituriyentləri xüsusi hədiyyələrlə mükafatlandırmaq niyyətindədir. Belə ki, Azərbaycanın müxtəlif bölgələrini təmsil edən ilin ən uğurlu abituriyentlərinə "Nar" operatoru adından dəyərli hədiyyələr təqdim ediləcək.**

**Bu məqsədlə, son qəbul imtahanlarının nəticələri açıqlandıqdan sonra xüsusi bir tədbirin keçirilməsi nəzərdə tutulub. Qeyd edək ki, ötən il də 700 bal toplamış 15 tələbəni təntənəli surətdə mükafatlandıran mobil operator artıq bu aksiyanı bir ənənə halına gətirib.**

**Təhsil "Nar" operatorunun KSM strategiyasının ən vacib istiqamətlərindən biridir. Gənclərdə oxumaq həvəsi oyatmaq, layiqli təhsil almaları üçün onlarda motivasiya yaratmaq mobil operatorun ən ümdə məqsədlərindən biridir. Belə stimullaşdırıcı proqramlardan biri də Azərbaycan Texniki Universiteti ilə imzalanmış tərəfdaşlıq müqaviləsi çərçivəsində həyata keçirilir. Belə ki, mobil operator universitetdə ən müasir avadanlıqlarla təchiz edilmiş "Nar" GSM laboratoriyası yaratıb, semestr ərzində Radiotexnika və rabitə fakültəsinin ən yaxşı nəticə göstərmiş tələbələrini mütəmadi olaraq xüsusi hədiyyələrə layiq görüb. Təhsil və maariflənmənin inkişafına xüsusi önəm verən "Nar" bu kimi təşəbbüslərlə tələbələrə dərslərində daha uğurlu olmaları üçün əlavə stimul verməyə çalışır.**

**"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. 2017-ci ildə müstəqil beynəlxalq şirkət olan "P3 Communications" tərəfindən keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olmuşdur. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 6500-dən artıq baza stansiyası ilə 2 milyondan çox abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir.**

nar
Gəlin birlikdə böyüyək

YENİ MÜSAVAT
N 132 (7021) 21 iyun 2018

# Qadınları dəhşətli hala salan kosmetoloqun klinikası bağlandı



**Pasiyentlərinin dodaqlarını yandırıb, dəhşətli hala salmaqda ittiham olunan, özünü kosmetoloq kimi təqdim edən Elnarə Rzayevanın klinikası, nəhayət ki, bağlanıb. Bu barədə zərərçəkmişlərin vəkili Toğrul Allahyarov criminal.az saytına məlumat verib. Vəkil qeyd edib ki, Nəsimi rayonu, Hənifə Ələsgərova küçəsi 4 ünvanında yerləşən mərkəz hazırda icarəyə verilir:**

## Mərkəzin personalı istintaqa cəlb edildi; Elnarə Rzayeva özü yoxa çıxıb

"Elnarə Rzayeva 3 ilə yaxın "LA sisters" mərkəzində qeyri-rəsmi işləyib. 2017-ci il sentyabrın 15-dən əmək müqaviləsi ilə həmin mərkəzə rəsmi işə düzəlib. Çoxsaylı şikayətlərdən sonra "LA sisters" rəhbərli tərəfindən işdən azad olunub. Onunla bağlanmış əmək müqaviləsi ləğv olunub. Bundan sonra Elnarə Rzayeva həmin mərkəzə yaxın yerdə, həmin binadan bir neçə metr kənarda özünə yer kirayələyərək işləməyə başlamışdı. Bir neçə zərərçəkmiş xanımın dodaqlarını həmin mərkəzdə yandırıb. Görünür, son zamanlar adı mediada hallandırıldıqdan sonra mərkəzi bağlayaraq qaçıb. Onun başqa bir mərkəzi də var. Səməd Vurğun 92-də, ona həbs qoydurmuşam".

"Yeni Müsavat"a daxil olan məlumata görə isə mərkəz bağlandıqdan sonra personal istintaqa cəlb edilib, araşdırma aparılır. Məsələ ilə bağlı Elnarə Rzayevanın mövqeyini öyrənməyə çalışsaq da, zənglərimiz cavabsız qaldı. Mərkəzdə çalışan digər kosmetoloq Vəfa Mustafayeva isə zənglərimizdən sonra mobil telefonunu söndürdü.

Xatırladaq ki, son vaxtlar Elnarə Rzayevanın qurbanlarının sayı durmadan artmağa başlamışdı. Bu günə qədər çoxlu sayda pasiyent, o cümlədən model Esmira Yusifova, Xalidə Qasımova, E.M-ova, Səlmi Əhmədova mətbuata müraciət edərək, onun prosedurlarından şikayət edib, dodaqlarında, üzlərində yaralar əmələ gəldiyini bildiriblər.

Bəzi pasientlər isə şikayət etdikləri üçün kosmetoloq tərəfindən döyüldüyünü iddia edib, məhkəməyə müraciət ediblər. Məlum olduğu kimi, ötən ayın sonunda bununla bağlı Elnarə Rzayeva barəsində məhkəmə qərarı çıxarıldı. Qərara əsasən E.Rzayeva pasientləri Rəna Sultanova və Nigar Məmmədovanın ləyaqət və işgüzar nüfuzunu ləkələyən məlumat paylaşıb, böhtanlar atdığı üçün 50 min manat təzminat ödəməli, eyni zamanda sosial şəbəkədə bacılardan üzr istəməlidir.

Eyni zamanda pasiyenti Validə Firudinovanı pula görə döydüyü üçün barəsində Cinayət Məcəlləsinin 127-ci (qəsdən sağlamlığa az ağır xəsarət yetirmə) maddəsi ilə cinayət işi başladılıb.

Onu da əlavə edək ki, bağlanan klinikanın lisenziyası olmadığı haqda iddialar var idi. Belə ki, Səhiyyə Nazirliyi vəkil sorğusuna cavab verərkən bildirib ki, Elnarə Rzayevanın tibbi və əczaçılıqla ilə bağlı lisenziyası yoxdur. Qeyd olunub ki, Elnarə Rzayeva adında şəxs praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olması üçün sertifikasiya prosesində iştirak etməyib və bununla bağlı onun Səhiyyə Nazirliyinə müraciəti daxil olmayıb.

❑ **Xalidə GƏRAY,**
**Musavat.com**

# Marixuana satışının leqal olduğu ölkələr

## Siyahıda əsasən qeyri-müsəlman ölkələrdir

**Kanada dünyanın inkişaf etmiş yeddi ölkəsindən biri kimi marixuananın zövq üçün istifadəsini qanuniləşdirən ilk ölkə oldu. Qanun marixuananın hansı şəkildə becərilməsini, paylanmasını və satılmasını tənzimləyir. İstifadəçilərin marixuananı ictimai yerlərdə istifadə edib-etməyəcəyinə yerli orqanlar qərar verəcək. Qanunun sentyabrdan qüvvəyə minəcəyi gözlənilir.**



Qeyd edək ki, Kanadada marixuananın istifadəsi 1923-cü ildən bu yana cinayət hesab olunsa da, 2001-ci ildən tibbi istifadəsinə icazə verilmişdi. Xüsusilə gənc kanadalılar dünyada ən çox marixuana istifadə edənlər sırasındadır. Hökumət qanunun qəbulu ilə qanuni marixuana satışına ciddi nəzarət edəcəyini, onun gənclərə çatmasını çətinləşdirəcəyini və bununla qanunsuz dövriyyəni əsas gəlir qaynağından məhrum edəcəyini bildirir.

Eyni təcrübə ABŞ-ın müxtəlif ştatlarında illərdir tətbiq edilir. Ötən il Nevada ştatının rəsmiləri də marixuana qıtlığı ilə mübarizə aparmaq üçün marixuananın şəxsi istifadəsi üçün qadağanı qaldırdı. Bundan sonra ona tələbat daha da artıb. "Reno Gazette" qəzetinin verdiyi məlumata görə, marixuana satan mağazaların çox olmasına baxmayaraq, məhsulun distributorları azdır. Marixuananın istifadəsini leqallaşdıran qanunda onun içki distributorları tərəfindən satılmasına icazə verilmişdi. Lakin ştatın vergi qurumları bildirir ki, topdan içki satanlar lazım olan qaydalara riayət edə bilməyiblər. Vergi qurumu təcili tədbirlərə ehtiyac yarandığını elan edib. Bu vəziyyət rəsmilərə qıtlığı aradan qaldırmaq üçün xüsusi, təcili addımlara icazə verir. Vergi nümayəndəsi Stephanie Klapstein satışların sənayenin təxminlərini üstələdiyini deyir. O, ştatdakı 47 dükanın çoxunda marixuananın tükəndiyini bildirib. Şəxsi istifadə qanuniləşəndən sonra ilk 4 gün ərzində 3 milyon dollarlıq marixuana satılıb. Bundan bir milyon dollar vergiyə cəlb olunub.

Nevadadan əvvəl bir neçə ABŞ ştatında marixuananın qismən leqallaşdırılması barədə qərar çıxarılıb. Hazırda marixuananın tibbi məqsədlə istifadəsinə ABŞ-ın 25 ştatında icazə verilir.

Avropada isə 15-16 yaşlılar arasında siqaret çəkən və spirtli içki içənlərin sayı azalsa da, marixuanadan istifadə edənlərin sayı artmaqdadır. Avropa İttifaqının keçirdiyi sorğuya əsasən marixuanadan istifadə edənlər orta hesabla 16 faiz təşkil edib. Bu, İspaniya ilə ( 27 faiz) müqayisədə daha azdır. Marixuananı ekstazi və ya kokain kimi digər narkotik maddələrlə müqayisədə daha rahat əldə etmək mümkün olub.

Sorğunun nəticəsinə əsasən, marixuanadan istifadəyə görə Avropa ölkələri arasında böyük fərq var - Bolqarıstan, Yunanıstan, Polşa və Rumıniyada digər ölkələrlə müqayisədə artım müşahidə olunub.

1970-ci ildən 2014-cü il yanvarın 1-dək marixuananın kef məqsədli alına biləcəyi tək ölkə Niderland idi. Niderlandda artıq çoxdandır ki, qəhvəxana adlandırılan məkanlarda az miqdarda marixuana almağa icazə verilir. Məsələn, bir kafedə gündə ən çox 500 qram marixuana işlədilə, bir müştəriyə gündə ən çox 3 qram marixuana satıla bilər. Bu kafelərin heç birində 18 yaşına çatmamış kimsəyə xidmət göstərilə bilməz. Bu qaydalara əməl etməyən kafe bağlanır.

İsrailin Nazirlər Kabineti də marixuanadan istifadə edən şəxslərin cinayət məsuliyyətindən azad olunması barədə qərarı dəstəkləyir. İsrail Yaxın Şərqdə marixuanadan istifadəyə görə cinayət məsuliyyətinə cəlb olunma qərarını ləğv edən ilk ölkədir. Bu ölkə marixuananın tibb sahəsində istifadə olunmasının öyrənilməsində dünya lideri sayılır.

Qüdsdə yerləşən Avropa Universitetinin professoru Rafael Mochoulamın sözlərinə görə, bu maddənin (kanabis) üstünlüyü kimyəvi olduğu kimi, farmakoloji nöqteyi-nəzərindən də öyrənilir. İsrailin Səhiyyə Nazirliyinin rəsmi məlumatına görə, ölkədə 25 min insanın tibbi marixuana almaq hüququ var. Onların çoxu onkoloji xəstəlikdən əziyyət çəkir. Bu dərmanı yazan həkimlərin fikrincə, kanabis müvəqqəti olaraq ağrını və əsəb gərginliyini aradan qaldırır. Həkim-psixiatrların tövsiyəsi ilə marixuananı çəkənlər də var. Ölkədə gərgin hallar nadir hadisə olmadığı üçün insanlar tez-tez psixoloji yardım almaq üçün həkimə müraciət edirlər.

2008-ci ildən Ekvadorda narkotiklərin şəxsi istifadəsi və saxlanmasına icazə verilib, amma bu qanun satış məsələsinə aid edilir. Ekvador əhalisinin 10 qram marixuana, ağır uyuşduruculara uyğun olaraq 100 milliqram heroin və 80 milliqram ekstazi saxlamasına icazə verilir.

Argentina hökuməti da narkotiklərlə mübarizədə dekriminalizasiya siyasətini seçib.

Narkotik maddələrin leqallaşdırılması və liberallaşdırılması istiqamətində ilk addım atan ölkələrdən biri də Portuqaliyadır. Orada narkotikdən istifadə cinayət hesab olunmur, sadəcə, sağlamlığa ziyanlı vasitə kimi qəbul olunur. Bu ölkədə həbs cəzası reabilitasiya seansları ilə əvəz olunur.

Xorvatiyada narkotik maddələrə qarşı liberal münasibətin əsas səbəbi buradakı 15-34 yaşlı əhalinin 18.5%-nin böyük həcmdə marixuana qəbul etməsidir. 2012-ci ildə bu ölkədə narkotik maddələrin fasiləli istifadəsinə icazə verilib, amma onların satışı qadağandır.

Avstraliyada uyuşdurucu həblərin və maddələrin istifadəsi qanunsuz olsa da, xüsusi mərkəzlər yaranıb ki, onlarda asılılıq problemi olan şəxslər steril şəraitdə özlərinə narkotik iynələri vurdura bilirlər.

Çexiya parlamenti 2012-ci ildə apteklərdə marixuananın reseptlə satışına icazə verir. Qeyd edək ki, Çexiyanın antinarkotik qanunvericiliyi bundan öncə marixuananın yetişdirilməsinə və istifadəsinə icazə versə də (15 qramdan az olmaq şərtilə), narkotik vasitələrin satışını qadağan edirdi. Yeni qanun layihəsini hazırlayanlardan biri Pavel Bemanın sözlərinə görə, yeni qanun marixuananı qadağaya baxmayaraq istifadə edən pasiyentlər üçün nəzərdə tutulub ki, onlar bu narkotik vasitələri apteklərdə əldə edə bilsinlər.

Bu gün ABŞ, Argentina, Avstraliya, Belçika, Braziliya, Kamboca, Kolumbiya, Kosta-rika, Xorvatiya, Çexiya, Ekvator, Estoniya, Fransa, Hindistan, İran, Pakistan, Şimali Koreya, Uruqvay, İspaniya kimi dünyanın müxtəlif ölkələrində çətənənin istehsalı və istehlakı müxtəlif ölçülərdə azad olsa da, təxminən yüz il əvvəl başlayan əks-təbliğat hələ də ciddiliyi ilə davam edir.

❑ **Ləman MUSTAFAQIZI,**
**"Yeni Müsavat"**

# YENİ MÜSAVAT

## Son səhifə

N 132 (7021) 21 iyun 2018




## Həkimlər niyə gigiyenaya riayət etmir?

Ümumdünya Səhiyyə Təşkilatı açıqlayıb ki, həkimlərin 40 faizi əl gigiyenasına diqqət etmir. İtaliya, Mali, Pakistan və Səudiyyə Ərəbistanının 43 xəstəxanasında aparılan araşdırma nəticəsində tibb bacılarının da 29 faizinin əl gigiyenasına əhəmiyyət vermədiyi üzə çıxıb. Dünyanin 168 ölkəsində həkim, tibb bacısı və digər tibb işçiləri arasında "Təmizlik təhlükəsizlikdir" şüarı ilə keçirilən kampaniya çərçivəsində onlara təmizliklə bağlı təlim verilir. ÜST həmçinin açıqlayıb ki, müalicə zamanı yoluxan xəstəliklərin çoxu səhiyyə işçilərinin xəstəyə toxunması ilə keçən mikroblardan qaynaqlanır. İnkişaf etmiş ölkələrdə hər 100 xəstədən 7-si, inkişaf etməkdə olan ölkələrdə isə hər 100 xəstədən 10-u bu mikrob ucbatından xəstələnir. Son illərdə bu sahədə aparılan təbliğat sayəsində isə əl gigiyenasına diqqət etmə faizi 51 faizdən 67 faizə qədər artıb.



## 7 il ildir danışmırdı, pişiyi dilini açdı...

İngiltərənin Mançester şəhərində "nadir danışmamaq" xəstəliyinə tutulan və heç kimlə danışmayan 7 yaşındakı Lorcan Dillon pişiyi sayəsində xəstəliyinə qalib gəlib və 7 ildən sonra nəhayət ki, danışmağa başlayıb. Türkiyə mətbuatının yazdığına görə, danışıq qabiliyyəti olmasına baxmayaraq, bu uşaq heç bir fikrini ifadə edə bilmirdi. İki yaşına çatanda ailəsi də daxil olmaqla, heç kimlə danışmayan bu uşaq son iki ilini yanından ayırmadığı pişiyi, yeganə dostu Cessi ilə keçirib. Və elə ilk cümləsini də pişiyinə söyləyib. "Səni sevirəm" dediyi pişiyindən sonra uşaq anasına və atasına da müəyyən sözlər deyib. Valideynləri bu hadisəyə görə çox sevinib və həyatları boyunca Cessiyə minnətdar olacaqlarını deyiblər.

# Makiyajı ərzaqdan düzəltdi

Çinin Siçuan bölgəsində yaşayan bir qız makiyajdan istifadə etmək üçün çox orijinal üsula baş vurub. Belə ki, ofisdə nahar fasiləsi zamanı makiyaj çəkmək istəyən qız bunun üçün ərzaq məhsullarından və konselyariya ləvazimatlarından istifadə edib. Unla və mayonezlə üzünü ağardan qız kakao ilə yanaqlarına rəng verməyə çalışıb. Bundan sonra isə çiyələk və gilasla dodaqlarını qızardıb, qara flamasterlə gözünə sürmə çəkib. Bütün bunları videoyaddaşa köçürən çinli qız öncə onu YouTube kanalında, daha



sonra isə facebookdakı Ms Yeah səhifəsində yayıb. Videorolik 16 iyun tarixində yayımlanıb. Bu günlər ərzində onu 13 milyon nəfər izləyib.

# Həm işləmir, həm də ayda dünyanın pulunu qazanır

Bir texnologiya şirkətində proqramçı olaraq çalışan işçi görməli olduğu bütün işləri avtomatik sistemə bağlayaraq 6 il boyunca heç çalışmadan ayda 8 min dollar maaş alıb. Amma bu hərəkətinə görə onu işdən qovublar. Buna səbəb isə onun sistemini kodlamağı unutmasıdır. Buna baxmayaraq, 6 illik uzun karyerası zamanı 200 min dollar yığıb və buna görə də maddi baxımdan hər hansı çətinliyi yoxdur. Evdə anasının hazırladığı axşam yeməyini yeyən, işlədiyi zamansa naharını balıq sendviçi və kola ilə yola verən gənc onun sayəsində qənaət edə bilib.

Amma adı açıqlanmayan gənc artıq həyatını bir sistemə qoymaq istədiyini deyib. Buna görə də bir neçə yerə işlə bağlı müraciət edib. Dediyinə görə, bu günə qədər unutduğu bir çox şeyləri təkrarlayacaq və bununla da motivasiyası geri qayıdacaq.





## Gözün mavidirsə, alkoqolik ola bilərsən

ABŞ-ın Vermont Universitetində həyata keçirilən bir araşdırmada qəribə nəticələr əldə edilib. Araşdırmaya görə, göz rəngi mavi olan insanlar daha çox spirtli içki qəbul edirlər. Mavi gözlülər potensial alkoqolik olaraq təqdim olunur. Nəticələrə genetik araşdırmalar səbəb olub. "Focus Online"da yer alan xəbərdə qeyd edilir ki, mavi gözlülərlə paralel olaraq, gözü rəngli olanlar üçün də bu nəticə keçərlidir. Belə ki, insanlara göz rəngini verən genlər onların alkoqola meylliliyinə də təsir göstərir. Amma alimlər onu da bildirib ki, test nəticələri bu cür çıxsa da, bu sahədə daha ciddi araşdırmalar aparılmalıdır. Göz rəngi ilə xarakter arasında bir əlaqə olub-olmaması da araşdırmaların mövzularından biridir.




**QOÇ** - Əşyalarla, xüsusən də elektrik cihazları ilə ehtiyatlı davranın. Əks təqdirdə, xəsarət ala bilərsiniz. Axşama yaxın əsəblərinizi sakitləşdirmək üçün gəzintiyə çıxın. Sirlərinizi açmayın.

**BUĞA** - İqlimin qızmarlığı neçə gündür ki, fiziki yorğunluğunuza səbəb olub. Odur ki, istirahətə daha çox yer ayırın. Günün ikinci yarısında isə uzaq səfərə də çıxmaq olar.

**ƏKİZLƏR** - Görəcəyiniz işləri əvvəlcədən konkretləşdirin. Qızmar yayın bu ərəfəsi karyeranız üçün həddindən ziyadə uğurlu ərəfə olacaq. Amma bugünkü vaxtınızı konkret olaraq sevgiyə həsr edin.

**XƏRÇƏNG** - Gileylərinizi qabartmayın. Özünüzü təmkinli, eyni zamanda qürurlu göstərin. Düşünülməmiş qərar çıxarmaq, risk etmək sizə uğur gətirməyə bilər. Sevgi amilinə diqqəti artırın.

**ŞİR** - Ehtiyatlı olun. Göy qübbəsi ciddi yanlışlığa yol verə biləcəyinizi bəyan edir. Mövcud situasiyaları kontrolda saxlamağa çalışın. Ürəyinizcə olmayan təklifləri düşünmədən təxirə salın.

**QIZ** - Dünəndən bəri bürcünüzdə qərar tutan mənfi enerjili Ay tövsiyə edir ki, təpər tapıb qarşınıza çıxan maneələri dəf edəsiniz. Günün ikinci yarısında yeni işgüzar əlaqələr qurmaq üçün əzmkarlığınızı artırmalısınız.

**TƏRƏZİ** - Bu təzadlı təqvimdə bacardığınız qədər təmkin nümayiş etdirməyə çalışın. Yaxşı olar ki, yorucu işlərə ara verib istirahət edə, daha çox həzin bir musiqiyə qulaq asasınız.

**ƏQRƏB** - İqlimin qaynarlığı səhhətinizə mənfi təsir göstərə bilər. Bu səbəbdən də ehtiyatlı davranış, qidalara xüsusi diqqət yetirmək sizin üçün olduqca vacibdir. Yeni işlərə başlamayın.

**OXATAN** - Bir qədər gərgin situasiyalara cəlb oluna bilərsiniz. Odur ki, iş yerində və ayrı-ayrı şəxslərlə davranışlarınızı tənzimləməlisiniz. Ağlınız kəsməyən işlərə girişməyin.

**OĞLAQ** - Yeni əlaqələr yaratmaq fikriniz varsa, saat 15-ə qədər əzmkarlığınızı artırın. Söhbət və müzakirələr zamanı özünüzü qürurlu aparmağa çalışın. Sonrakı saatlarda istirahət edin.

**SUTÖKƏN** - Dünya niyə xoşunuza gəlmir? Bəlkə səbəbi təbiətdə deyil, insanlarda arayasınız. İxtiyarınızda olan bu təqvimdə yalnız bu barədə düşünün. Gün ərzində soyuq qidalardan uzaq olun.

**BALIQLAR** - Maliyyə sövdələşmələrində iştirak etmək üçün ideal gündür. Şəxsi büdcənizi artırmaq üçün bir az siyasətçi olun. Axşama yaxın çoxdan görmədiyiniz adamlarla rastlaşacaqsınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Selfi çəkirdi, ildırım vurub öldürdü

Britaniya vətəndaşı selfi çəkərkən əlində tutduğu selfi çubuğunu ildırım vurub. İldırım vuran adam yerindəcə ölüb.

Uelsin cənubunda yerləşən Brekon-Bikons parkında baş verən hadisə zamanı qasırğalı havada bir qrup şəxs dağın başında selfi çəkdirirdi. Həmin gün hadisə yerində iki nəfər ölüb. İkinci şəxsin ölüm səbəbi dəqiqləşdirilir. Daha iki nəfər travma alaraq xəstəxanaya çatdırılıb. Təhlükəsiz selfi çəkdirmək problemi artıq dünyanın müzakirə obyektinə çevrilib. Rusiya DİN hətta bu haqda məktəblilər üçün yaddaş kitabçaları çap etməyə başlayıb.

Səhifəni hazırladı: SELCAN


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.



e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)



Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.100